www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-10 may 2017-ci il Çərşənbə axşamı № 98 (6712) Qiyməti 60 qəpik

**Xəbər**

**Müharibə kimi yol "terroru" - 3 ayda avtoqəzalarda 162 nəfər ölüb**

yazısı səh.14-də

**Gündəm**

**Azərbaycana qarşı növbəti təxribatlar - düşmən Bakını savaşa çəkir**



Serj Sərkisyan Şuşanın işğal günündəki tədbirlərə qatılmaq üçün Qarabağa gəlməklə müharibə tərəfdarı olduğunu nümayiş etdirdi

yazısı səh.11-də

**Sabiq komandirdən Şuşanın işğalı ilə bağlı mühüm açıqlamalar**

yazısı səh.5-də

**Maşınla gənc ananı öldürən yeniyetmə qapalı tərbiyə müəssisəsinə göndərilə bilər**

yazısı səh.3-də

**İslamiada ilə bağlı Bakıda ciddi təhlükəsizlik tədbirləri görülür**

yazısı səh.4-də

**Müxalifət hələ də hakimiyyətə gələcəyinə inanırmı...**

yazısı səh.3-də

**Beynəlxalq yarışların keçirilməsində dünya təcrübəsi - xaricdə nələr fərqlidir...**

yazısı səh.4-də

**"Şərurlu İsfəndiyar" "Zaminbank"ı məhkəməyə verdi**

yazısı səh.6-da

**Makronun Fransa prezidenti seçilməsinin Azərbaycana da dəxli var imiş**

yazısı səh.10-da

**Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 4 milyard manat azalıb**

yazısı səh.2-də

**Ramazan Abdulatipov hakimiyyətə necə gəldi...**

yazısı səh.12-də

**X sinif dərsliklərində səhvlər aşkarlanıb - DİM açıqlama yaydı**

yazısı səh.2-də

## Okeanın o tayından qərb qonşumuza ilginc dəstək

# ABŞ-DAN SEPARATÇI BÖLGƏLƏRLƏ BAĞLI GÖRÜNMƏMİŞ QƏRAR - BAKI ÜÇÜN DƏ ŞANS

Senatın 2017 üçün federal büdcə ilə bağlı qəbul etdiyi qanunda ilk dəfə olaraq Gürcüstanın ərazi bütövlüyünə dəstək maddələri yer alıb, işğala görə Rusiyaya yeni sanksiyalar nəzərdə tutulur; bəs Ermənistan? Trampın imzaladığı sənədin analojisi Azərbaycanla bağlı da qəbul edilə bilər, əgər...




yazısı səh.9-da

## Polad Bülbüloğlu səfir postundan geri çağırılır - təfsilat

YUNESKO-ya rəhbərlik üçün namizəd olan Rusiyadakı səfir diplomat kimi fəaliyyətini başa vurmaq ərəfəsindədir; gələn il həm Azərbaycanda, həm Rusiyada mühüm siyasi hadisə olacaq; iqtidar Moskvada səfir postuna daha çevik diplomat təyinatı barədə qərarlıdır

yazısı səh.8-də



**50 yaşlı Rey Kərimoğlunun üç arzusu; "Bəlkə də Allah məni ona görə sağ saxlayıb ki..."**

yazısı səh.7-də



**Cahangir Hacıyevdən siyasi məhbus məsələsinə dair ikibaşlı bəyanat**

yazısı səh.5-də



**Donald Tramp "sirli məktub"u oxusa, istefaya məcbur qala bilər**

yazısı səh.13-də



# Prezident Maliyyə Nazirliyi ilə bağlı fərman verdi

**Maliyyə Nazirliyinə yeni səlahiyyət verilib. APA-nın məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin bu gün imzaladığı "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" fərmanında əksini tapıb.**

Maliyyə Nazirliyi dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalmasına razılıq vermək və ya ondan imtina barədə qərar qəbul etmək səlahiyyətində olacaq.

Müvafiq olaraq Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"yə də dəyişiklik edilib. Agentliyin vəzifələri sırasına dövlətə məxsus olan hüquqi şəxslərin borcalma niyyəti barədə müraciətlərini təhlil etmək və bu borcalmanın yuxarı həddi və dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalmasına razılıq vermək və ya ondan imtina barədə Maliyyə Nazirliyinə əsaslandırılmış təkliflər vermək əlavə edilib.

# Masallı prokurorluğu sünnət zamanı ölən uşaqla bağlı məlumat yaydı

**Masallıda azyaşlı uşağın sünnət olunan zaman dünyasını dəyişməsi ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.**

Bu barədə musavat.com-a Masallı Rayon Prokurorluğundan məlumat verilib. Məlumatda aşağıdakılar qeyd olunub:

"Mayın 3-də Masallı rayon Musaküçə kənd sakini, azyaşlı Hüseynov Kənan Abutalıb oğlunun Masallı rayon mərkəzi xəstəxanasında vəfat etməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

İlkin araşdırmalarla müəyyən edilib ki, 2012-ci il təvəllüdlü Kənan Hüseynov qeyd edilən tarixdə saat 14 radələrində yaşadığı evdə əvvəllər cərrah işləmiş, 2016-cı ilin aprel ayından təqaüddə olan həkim Ramiz Sadıqov tərəfindən sünnət olunarkən halı pisləşib. O, rayon mərkəzi xəstəxanasına aparılmasına baxmayaraq orada vəfat edib".

Məlumatda həmçinin bildirilib ki, K. Hüseynovun ölümünün səbəblərinin müəyyən edilməsi məqsədilə məhkəmə-tibb ekspertizası təyin edilib və hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

❑ Əli RAİS

# X sinif dərsliklərində səhvlər aşkarlanıb - DİM açıqlama yaydı

**Dövlət İmtahan Mərkəzi (DİM) ilə Təhsil Nazirliyi arasında bağlanmış müqavilə əsasında DİM yeni təhsil proqramları (kurikulumlar) əsasında hazırlanmış X sinif dərslik komplekti layihələrinin qiymətləndirilməsini həyata keçirib.**

DİM-dən APA-ya verilən xəbərə görə, qiymətləndirmə nəticəsində hazırlanmış rəylər (945 vərəq) 25 yanvar 2017-ci il tarixində Təhsil Nazirliyinə göndərilib.

Təhsil Nazirliyi tərəfindən müsabiqə şərtini ödəmiş X sinif dərslik komplekti layihələri "ictimai müzakirə" üçün http://www.trims.edu.az saytına yerləşdirildikdən sonra nazirliyin rəsmi müraciətinə əsasən, yenidən həmin layihələrin elmi-metodiki monitorinqi aparılıb. Monitorinq zamanı müəyyən edilib ki, qiymətləndirilmə nəticəsində hazırlanmış rəylərdə göstərilmiş qeyd, irad və təkliflərin xeyli hissəsi nəzərə alınıb, lakin bəzi iradlar olduğu kimi qalıb, əlavə və dəyişikliklər zamanı isə yeni səhvlərə yol verilib.

Dərslik komplektlərinin yuxarıda qeyd olunan saytda yerləşdirilmiş layihələrinin monitorinqi nəticəsində hazırlanmış yekun rəylər (193 vərəq) 8 may tarixində Təhsil Nazirliyinə göndərilib.

# "ATƏT-in İrəvan ofisinin bağlanmasında Ermənistan günahkardır" - Azay Quliyev

**ATƏT-in İrəvan ofisinin bağlanmasında Ermənistan günahkardır. Bunu «Trend»ə açıqlamasında ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev deyib.**



A.Quliyev qeyd edib: "Təəssüf ki, ATƏT-in İrəvan ofisi onun üçün müəyyən edilmiş mandatdan kənara çıxaraq Azərbaycanın işğal olunmuş ərazilərində "mina təmizləmə" prosesinə Ermənistan tərəfindən cəlb olunub və bu işə xeyli miqdarda vəsait xərclənib. Bu isə iki mühim prinsipin və razılaşmanın kobud şəkildə pozulmasına gətirib çıxarıb. Birinci, ümumi razılaşmaya görə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə ATƏT-in Minsk Qrupu məşğul olduğu üçün ATƏT-in Bakı və İrəvan ofisləri bu məsələlərə cəlb olunmamalı idi. Lakin bu razılaşma Ermənistan tərəfindən pozuldu və qeyd etdiyim kimi, İrəvan ofisi işğal olunmuş ərazilərdə mina təmizləmə əməliyyatına qoşuldu. İkinci, İrəvan ofisi cografi prinsipi pozaraq bu fəaliyyəti Ermənistanın sərhədlərindən kənarda, yəni Azərbaycanın işğal edilmiş ərazilərində həyata keçirdi. Bu isə beynəlxalq hüquq normalarını, xüsusilə ATƏT-in qəbul etdiyi ümumi prinsip və dəyərləri kobud şəkildə pozdu".

**Onun sözlərinə görə, Azərbaycanın ATƏT-dəki daimi nümayəndəliyinin dəfələrlə etdiyi xəbərdarlığa baxmayaraq, İrəvan ofisi bu qanunsuz fəaliyyəti davam etdirirdi:** "Təsəvvür edin ki, Azərbaycanın da ödədiyi vəsait hesabına fəaliyyət göstərən ATƏT-in İrəvan ofisi bu addımı ilə Ermənistanın işğalçılıq mövqelərinin möhkəmləndirilməsinə yardım etmiş olurdu. Buna isə dözmək mümkün deyildi".

**A.Quliyev əlavə edib ki, Azərbaycan bu barədə öz narahatlığını daim ifadə etmiş və bu ilin əvvəllərində ATƏT-ə sədrlik edən Avstriyadan İrəvan ofisinin mandatına aydınlıq gətirilməsini və qeyd olunan pozuntuların aradan qaldırılmasını xahiş etmişdi:**

"Lakin Ermənistanın ATƏT-in İrəvan ofisinin mandatının dəqiqləşdirilməsi ilə əlaqədar Avstriyanın irəli sürdüyü təklifləri və kompromis variantı rədd etməsi səbəbindən mandatın müddətinin uzadılması haqqında konsensus əldə olunmadı. Belə olduğu təqdirdə, ATƏT-ə sədrlik edən Avstriya İrəvan ofisinin bağlanması haqqında qərarı elan etməyə məcbur oldu. Yuxarıda qeyd olunan faktlara əsasən deyə bilərəm ki, ATƏT-in İrəvan ofisinin bağlanmasında Ermənistan günahkardır. Fürsətdən istifadə edib Avstriya hökumətinə, şəxsən xarici işlər naziri və ATƏT-in hazırkı sədri, Sebastian Kurtsa nümayiş etdirdiyi prinsipiallığa görə təşəkkür edirəm".

# Bəzi tibb müəssisələrinin baş həkimlərinə xəbərdarlıq edildi

**"Ötən il noyabrın 15-dən - əlilliyin qiymətləndirilməsində ekspertiza və reabilitasiya alt sisteminə keçiddən sonrakı 4 ayda əlilliyin təyini ilə bağlı tibb müəssisələrindən Tibbi-sosial ekspert komissiyalarına verilən göndərişlərin (F-088U) sayı, xüsusən, əsassız göndərişlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Səhiyyə Nazirliyinə mart ayında eyni məzmunlu məktub daxil olub".**



APA-nın xəbərinə görə, bunu Səhiyyə Nazirliyinin tibbi yardımın təşkili şöbəsinin müdiri Gülmirzə Poladov deyib. O bildirib ki, ötən müddətdə Tibbi-sosial ekspert komissiyalarına ümumi sayına görə ilk yeri tutan tibb müəssisələrindən - 131 min nəfər əhaliyə xidmət göstərən Ağcabədi Mərkəzi Rayon Xəstəxanasından (MRX) 574, 31 nəfərə xidmət göstərən Ramana Birləşmiş Şəhər Xəstəxanasından (BŞX) 411, 95 min əhaliyə xidmət göstərən Balakən MRX-dən 385 "forma-088" verilib.

"Hesablamalar göstərir ki, bir ayda hər 10 min nəfərə verilən "forma-088"lərin sayı 5-6-ya bərabərdir. Təəssüf ki, bəzi tibb müəssisələri orta göstəricilərdən 6-7 dəfə çox göndəriş verib. Bu müəssisələrin hesabına ölkə üzrə orta göstərici də yüksəlib. 2017-ci ilin yanvar ayında 21 saylı BŞX orta ölkə göstəricisini 7.9, 15 saylı şəhər poliklinikası (ŞP) 4.5, 22 syalı ŞP 4.1, Ağcabədi, Saatlı və Balakən rayonları isə təxminən 3 dəfə üstələyib. Bu tibb müəssisələrinin baş həkimlərinin hər biri yanvar ayında ayrı-ayrılıqda Tibbi-yardımın təşkili şöbəsinə dəvət olunub və onlara şifahi xəbərdarlıq edilib. Ağcabədi MRX Poliklinika şöbəsinin müdiri isə tutduğu vəzifədən azad olunub", - deyə şöbə müdiri əlavə edib.

G. Poladov qeyd edib ki, 3 aylıq dövrün təhlilinə əsasən, 21 BŞX orta ölkə göstəricisindən 7.9, 4 saylı ŞP 4.8, Ağcabədi MRX 4.6, 22 saylı ŞP 3,5 dəfə çox "forma-088" göndərib. Onun sözlərinə görə, araşdırılan müddətdə Bakı və Bakıətrafı qəsəbələrdə təxminən eyni sayda əhaliyə tibbi xidmət göstərən 31 saylı BŞX-dan cəmi 15, 24 saylı ŞP-dən 18, 11 saylı BŞX-dən 21, 19 saylı BŞX-dən 22 xəstəyə "forma -88" verilib. Şöbə müdiri vurğulayıb ki, Balakən MRX 55 xəstəyə 2 dəfə, 10 xəstəyə 3 dəfə, 1 xəstəyə hətta 5 dəfə, 21 saylı Ramana BŞX 48 xəstəyə 2 dəfə, 4 xəstəyə 3 dəfə, 1 xəstəyə isə 4 dəfə təkrar "forma-88" təqdim edilib.

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.




# Bu gün "Eurovision 2017" mahnı müsabiqəsinin ilk yarımfinalı keçiriləcək

**Mayın 9-da Ukraynanın paytaxtı Kiyevdə "Eurovision 2017" mahnı müsabiqəsinin ilk yarımfinalı keçiriləcək. Daha bir yarımfinal mayın 11-də, final isə 13-də baş tutacaq. Məlum olduğu kimi, müsabiqədə ölkəmizi Diana Hacıyeva "Skeletons" mahnısı ilə təmsil edəcək. Qeyd edək ki, bu il yarışmda 42 ölkə iştirak edəcək.**

Halbuki bundan əvvəl iştirak edəcək ölkələrin sayı 43 idi. Belə ki, Rusiya-Ukrayna arasında baş verən qalmaqal üzündən Rusiya yarışmadan və müsabiqəni öz ölkəsində yayımlamaqdan imtina edib. Xatırladaq ki, rusiyalı təmsilçi Yuliya Samoylova bundan əvvəl Rusiyanın işğal etdiyi Krıma getdiyi üçün Ukrayna tərəfi onu "qara siyahı"ya salıb və ona viza verməkdən imtina edib. Ukraynanın bu qadağasından sonra EBU Rusiyaya bəzi alternativlər təqdim etmişdi. EBU Samoylovanın müsabiqəyə Rusiyadakı bir studiyadan qatılmağını və ya Rusiyanın başqa bir nümayəndə göndərməsini təklif etmişdi. Rusiya tərəfi isə alternativ təklifləri qəbul etməmişdi.

❑ Xalidə GƏRAY

# Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 4 milyard manat azalıb

**Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının 2017-ci ilin aprel ayının 1-ə iqtisadiyyata kredit qoyuluşu 15 mlrd. 78,9 mln. manat təşkil edib.**

"APA-Economics" Azərbaycan Mərkəzi Bankının açıqladığı statistikaya istinadən xəbər verir ki, beləliklə, martda iqtisadiyyata kredit qoyuluşu 2,24% və ya 345,3 mln. manat azalıb.

Ötən ilin analoji dövrü ilə müqayisədə isə iqtisadiyyatın kreditləşməsi 21% və ya 4 mlrd. 12,6 mln. manat azalıb.

# Müxalifət hələ də hakimiyyətə gələcəyinə inanırmı...

**1990-cı illərin sonu - 2000-ci illərin əvvəllərində Azərbaycan müxalifətinin hakimiyyətin bir addımlığında olduğu iddia edilirdi. Müxalifətdə və cəmiyyətin müəyyən kəsimində o zamanlar iqtidara gələcəyinə inam da var idi. Son illərdə isə müxalifət o dərəcədə zəifləyib ki, hətta mövcudluğunu saxlaya bilməsi çətinləşib. Maraqlıdır ki, belə bir durumda da müxalifət nə zamansa hakimiyyətə gələcəyinə inanır.**



**Pənah Hüseyn:** "Bu nə vaxt baş verəcək, necə və hansı formada baş verəcək, bu məsələ barədə qəti fikir bildirmək çətindir"



**İqbal Ağazadə:** "Biz siyasi partiya olaraq hər gün hakimiyyətə gəlmək üçün çalışırıq, bunun nə zaman olacağı isə..."



**Əli Orucov:** "Bizim üçün əsas olan odur ki, dövlətçiliyimizə və suverenliyimizə təhlükə yaranmasın"

**Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, qanuni şəkildə müxalifətin iqtidara gəlməsi şəraiti, şansı həmişə mövcuddur:** "Ölkədəki sosial, iqtisadi vəziyyət, əhalinin durumu, sistem böhranının yaşanması əvvəl-axır dəyişikliyi zəruri edən prosesdir. Bu prosesin iqtidar dəyişikliyi ilə nəticələnməsi də gözləniləndir. Amma bu nə vaxt baş verəcək, necə və hansı formada baş verəcək, bu məsələ barədə qəti fikir bildirmək çətindir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, 1993-cü ildən sonrakı bir-iki ildə də müxalifətin güclənəcəyinə inanan az idi:** "Amma 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində vəziyyət birdən-birə dəyişdi, müxalifət güclü dövrünü yaşadı. İndi də heç kim dəqiq proqnoz verə bilməz ki, müxalifət sabah və daim zəif olacaq, onun perspektivi yoxdur. Çünki həm ətrafımızda, həm Azərbaycan daxilində sosial, iqtisadi vəziyyətdə, dünyanın siyasi mənzərəsində ciddi dəyişikliklər baş verir. Belə vəziyyətdə kimsə hakimiyyətə gələ bilər, kimsə qala bilər, kimsə qala bilməz proqnozunu verməyi düzgün deyil. Biz siyasi partiya olaraq hər gün hakimiyyətə gəlmək üçün çalışırıq. Bunun nə zaman olacağını isə şərait, zaman və şərtlər diktə edəcək. Bunu da siyasi institut kimi prosesi aparıb Azərbaycan Konstitusiyasının imkan verdiyi çərçivədə gerçəkləşdirməyə çalışacağıq".

**AMİP katibi Əli Orucov isə qeyd etdi ki, müxalifətin hakimiyyətə gəlməyə inamı hər zaman var, indi buna inanır. Bu inam olmasaydı illər uzunu ən ağır şərtlər daxilində indiyədək mübarizə aparmazdı:** "Hakimiyyətin təbliğat maşını rəsmi və qeyri-rəsmi olaraq bu fikri geniş aşılamağa çalışır ki, onların hakimiyyətdə qalmaları əbədidir, müxalifət isə əbədi olaraq müxalifətdə qalacaq. Sovet imperiyası kimi güclü və vahid bir imperiya bir göz qırpımında süquta uğradı. Hakimiyyətlər uzun ömürlü ola bilər, amma əbədi ola bilməz. 1990-2000-ci illərdə müxalifət ona görə güclü idi ki, cəmiyyət fəal idi. Siyasi partiyalara və siyasi məkana müəyyən imkanlar yaradılmışdı. Siyasi institutlar indiki kimi formal deyildi və partiyaların ictimai həyatda rolu yüksək idi. Eyni zamanda ölkəyə hələ milyardlarla dollar neft pulları daxil olmurdu. Beynəlxalq münasibətlərdə Rusiya faktoru əsas faktorlardan biri deyildi. Azərbaycan iqtidarının addımlarına beynəlxalq diqqət və basqılar güclü idi. Rəsmi Bakı Qərbin şaxələndirilmiş enerji və kommunikasiya layihələrində xüsusən də regional və enerji təhlükəsizliyi məsələsində həlqə deyildi. İctimai və dövlət nəzarətində də güclü idi. Amma indiki durum belə deyil. Radikalizm və dini təmayüllü qruplaşmaların mövqeləri güclənir. Siyasi partiyaların hakimiyyətə gəlməsinin mümkünsüz olması təbliğatı əslində bu qüvvələrin meydan sulamasına rəvac verir. Bizim üçün əsas olan odur ki, dövlətçiliyimizə və suverenliyimizə təhlükə yaranmasın. Bizim üçün hakimiyyət məqsəd deyil, vasitədir".

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət 24 ildir hakimiyyəti necə "yıxır"?

## Razi Nurullayev: ""Qurdlar Vadisi"ndə olduğu kimi, "qələmləri" qırılıb..."



Razi Nurullayev

**Azərbaycan müxalifətinin 24 ildir dəyişməyən bir ritorikası var. Demokratik düşərgə istər güclü vaxtlarında, istərsə də zəif dövrlərində ölkə iqtidarını "xalq hərəkatı" ilə hədələyir. Güclü zamanlarında müxalifəti haradasa anlamaq olur, amma 2005-ci ildən başlayaraq, sürətlə zəifləyən, bir-birinin ardınca mövqelərini rəqibinə təslim edən düşərgənin yenə də həmin ritorikadan çıxış etməsi suallar yaradır.**

Sanki müxalif liderlər düşdükləri vəziyyəti görməzlikdən gəlirlər. İcazəli mitinqlərinə 500-600 insan gələn bir düşərgənin "xalq hərəkatı"nı necə təşkil edəcəyi müzakirələr sırasındadır. Bununla bağlı bəzi fikirlər var. Çoxları düşünür ki, müxalifətdən qopan xalqı geri qaytarmaq üçün bu tipli ümidverici açıqlamalar verilir.

**Mövzu ilə bağlı danışan yeni AXCP-nin sədri Razi Nurullayev** qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan siyasətçilərinin təfəkkürü inkişaf mərhələsi keçmir: "Sanki təfəkkürləri donub. Bunun səbəblərindən biri siyasi mütaliənin zəif olması, beynəlxalq siyasətin zəif öyrənilməsi, beynəlxalq aləmdə baş verənlərə Azərbaycan rakursundan yanaşmadır. Yanlışlıq dünyada gedən etiraz aksiyalarının Azərbaycanda da baş verə biləcəyi düşüncəsindədir. Azərbaycanın özünün siyasi xüsusiyyətləri var. Çox ciddi demokratik qüsurlara malik olan Venesuelada demokratik seçkilər keçirilir, amma ölkə demokratik deyil. İranda çox gözəl Avropa standartlarına cavab verən seçki keçirilir. Ola bilər ki, seçkiyə qədər kimlərinsə seçkiyə buraxılması ilə bağlı müəyyən problemlər olsun. Lakin seçkilərə buraxılan namizədlərin içərisindən demokratik şəraitdə kim çox səs yığırsa, qalib gəlir. Yəni İran seçki demokratiyasına malikdir. Azərbaycanda isə tamamən əksinədir. Azərbaycan siyasətçiləri Türkiyəyə baxırlar, milyonlarla insanın küçələrə axışdıqlarını, seçkilərə təsir etmək istəklərini görürlər, düşünürlər ki, Azərbaycanda da bu şəraitdə bunları etmək mümkündür. Azərbaycan xalqı qeyd etdiyim xalqlardan fərqlidir. Həm mentaliteti, həm siyasi quruluşu, həm də siyasi mədəniyyəti ilə fərqlənir. Onun üçün də 1988-ci ilin ritorikası qalır. Hər kəs xalqın adından danışır, lakin xalq meydanda yoxdur. Xalqa mikrofonla yaxınlaşan jurnalist tək-tük hallarda rəy ala bilir. 100 nəfərdən bəlkə 2-3 nəfər qorxmadan nəsə deyə bilər. Qalanları isə hakimiyyətə tərif yağdırır. Siyasi mütaliəsi zəif olan, beynəlxalq aləmdəki prosesləri düzgün qiymətləndirməyən ənənəvi siyasətçilər başqa yolları qalmadığından köhnə üsullara əl atırlar".

**R.Nurullayev onu da qeyd etdi ki, xalqın adından danışanlar xalqın onları dinləmədiyini yaxşı anlayırlar:** "Bu insanlar müxalifətdə olduqlarının zamanını uzatmaq üçün çalışırlar. Onların 90%-i əmindir ki, xalq heç zaman onları dəstəkləməyəcək. Artıq insanların gözləri onları görməkdən yorulub. Onlar dalbadal seçkiləri ya uduzublar, ya da uduzdurulublar. Xalqa verdikləri vədləri yerinə yetirə bilməyiblər. Hər zaman deyirlər ki, xalq ayağa qalxacaq, biz hakimiyyətə gələcəyik. Amma bunların heç biri baş verməyib və bəlkə siyasətdən getdikləri zaman onları heç universitetlərdə belə müəllim götürməyəcəklər. Bunun üçün siyasi şərait də yoxdur. Artıq bu şəxslər müxalifətə iş yeri kimi baxmaq, gələcəkdə pensiyaya çıxmaq istəyirlər. Bəlkə də onlara aylıq təminatı yüksək olan iş təklif olunarsa, inandırıram ki, müxalifətdə olanların 60-70%-i bununla razılaşar. Amma bunun gərək uzunmüddətli olacağına əminliyi olsun. Bilirlər ki, xalq tərəfindən onların qələmi qırılıb. "Qurdlar Vadisi"ndə olduğu kimi, qələmləri qırılıb. Xalqın təbii ki, oyanmağı lazımdır. Amma burada yeni velosiped icad etməyə gərək yoxdur. Biz sovet dövründən qalan velosipedlə xalqı arxamızca aparmaq istəyiriksə, təbii ki, heç bir gözlənti ola bilməz. Velosipedin təkərlərini, yaxud başqa yerlərini dəyişmək lazımdır. Düşünürəm ki, biz yeni qüvvələr - tək özümüzü demirəm - həqiqəti görə bilir, zamanla uyğunlaşırlar. Velosipedə dəyişiklik etmək üçün fəaliyyət göstərirlər, xalq da bunları görür. Biz bu gün nəticəni tam görməsək də, gələcəkdə mütləq təsirləri olacaq. Yolu burada görürəm. Ənənəvi müxalifətin velosipedinin mexanizmləri sıradan çıxıb. Hərəkət etdikcə qəza törədəcəklər, xalq arasından da o velosipedin təkərləri altında qalanlar olacaq. Yeni qüvvələrə, simalara çox ehtiyac var".

❑ **Cavanşir ABBASLI**

# Maşınla gənc ananı öldürən qapalı tərbiyə müəssisəsinə göndərilə bilər

## Deputat: "Məsələ araşdırıldıqdan sonra konkret fikir söyləmək olar"

**İş adamı Füzuli Fərəcovun azyaşlı oğlunun 200 min dəyərində olan "Porsche" ilə 2 uşaq anasını vuraraq öldürməsi cəmiyyətdə ciddi rezonans doğurub.**

Belə ki, Füzuli Fərəcov hadisədən sonra mətbuata açıqlamasında oğlunun 14 yaşının olduğunu söyləsə də, yayılan rəsmi məlumatlardan aydın oldu ki, Ağəli Fərəcov əslində 16 yaşındadır. Bu isə onun məsuliyyətə cəlb olunmasına təsir edən önəmli faktordur. Görünür, məsuliyyətdən yayınmaq üçün F.Fərəcovun oğlunun yaşını gizlətmə cəhdinə sosial şəbəkələrdə yazılanlar, mətbuatda gedən informasiyalar mane oldu.

Bakı Şəhər Baş Polis İdarəsinin hadisə ilə bağlı yaydığı məlumatda qeyd olunub ki, Sabunçu Rayon Polis İdarəsinin və DİN-in "Təhlükəsiz şəhər" Xidməti əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni "Porsche" markalı 99 BS 999 dövlət qeydiyyat nişanlı avtomobillə törətmiş 2001-ci il təvəllüdlü Ağəəli Fərəcli müəyyən edilərək saxlanılıb. "Təhlükəsiz şəhər" Xidmətinin həmin ərazidəki kameralarının qeydə aldığı videoögrüntülər də hadisənin baş verdiyi zaman sükan arxasında məhz A. Fərəclinin olduğunu təsdiq edir.



Elə həmin gün faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismar qaydalarını pozma zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (Yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanılaraq istintaq aparılır.

Sahibi olduğu nəqliyyat vasitəsini idarə etmək hüququnun olmadığını bildiyi halda, 16 yaşlı oğluna verdiyinə görə Bakı şəhər sakini Füzuli Fərəcov barəsində İnzibati Xətalar Məcəlləsinin 335-ci (Nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarə etmək hüququ olmayan şəxsə verilməsi) maddəsinə əsasən, inzibati tədbir görülməsi haqqında qərar qəbul edilib.

Lakin ekspertlər bildirirlər ki, indiki halda belə, Ağəli Fərəcov həbs edilməyə bilər.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Fazil Mustafa da hesab edir ki, hələ ki konkret nə isə söyləmək doğru deyil:** "Əgər uşaq maşını qaçırıbsa, bu zaman məsuliyyət tərəfi onun üzərində qalır. Maşını atası veribsə, bu zaman isə fərqli məsuliyyət yaranır. Ona görə də birmənalı olaraq hansı məsuliyyətin yaranmasını istintaqın nəticələri ortaya qoya bilər. Mən də əslində uşağın yaşının 16 olduğunu Daxili İşlər Nazirliyinin açıqlamasında oxumuşdum. Ancaq mediada, görünür, bir-birindən köçürmə halı olduğuna görə 14 yaşın dalınca getdilər. 16 yaşla 14 yaş arasında məsuliyyət məsələsində fərqlilik mövcuddur. Bu isə qeyd etdiyim kimi, araşdırmalar nəticəsində müəyyən oluna bilər. İndidən konkret nə isə söyləmək, hansısa tərəfin haqsız vəziyyətə düşməsinə səbəb olar. Bütün hallarda valideynlər uşaqlara nəzarət etməlidirlər ki, hər hansı bir şəkildə, bu cür sui-istifadə halları olmasın və məsələnin həllində bu qədər mürəkkəblik yaradan, insan taleyinə təsir edən hadisələr baş verməsin. Ən azından uşaqlara nəzarət etmək vacibdir. Çünki bu kimi halların nəticəsini valideynlər çəkirlər. Bu baxımdan, valideynlər özləri məsələdə həssas olmalıdırlar".

**Deputat bildirib ki, Ağəli Fərəcovu qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərə bilərlər:**

"Ancaq bir daha deyirəm ki, araşdırmadan öncə bunu söyləmək doğru deyil. Bilinməlidir ki, o hansı formada maşını idarə edib. Bu məsələ çox əhəmiyyət daşıyır. O da mümkündür ki, istintaq nəticəsində hadisəni törədən şəxs azadlığa buraxılsın. Çünki şikayət edən tərəfin də bu məsələdə mövqeyi çox önəmlidir. Azərbaycanda yetkinlik yaşına çatmayanlar üçün müəyyən qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi nəzərdə tutulub, ancaq bu, istənilən səviyyədə deyil. Yəni orada daha çox tədris və təlim məsələlərinə yönəlmiş infrastruktur yetərli səviyyədə deyil".

❑ **Əli RAİS**



# Uşaqların böyüklərdən ona görə zəhləsi gedir ki...

**Aysel Əlizadə**

**Uşaqlara fikir versəz görərsiz ki, əslində onların böyüklərdən xoşları gəlmir. Biz zorla böyüklərə əydiririk uşaqları: "Böyükdü, hörmət et". "Böyükdü, salam ver". "Böyükdü imkan ver səni öpsün" "Böyükdü, sən dur, o otursun". Özlərinə qalsa, böyüklər onların vecinə də deyil.**

Düz də edirlər. Nə öyrənəcəklər bizdən? Saxtalığı?

Onlar öz dünyalarında xoşbəxtdilər. İstədikləri vaxt gülürlər, qışqırırlar, sevinirlər. Biz isə bu təbii sevinci əngəlləməklə məşğuluq. Ayıbdı, camaat baxır... Çünki camaat doğrudan da baxır. Çünki heç kim baxıb təbii qəbul etmir. "Uşaqdı, belə də olmalıdı" düşünmür.

Biz uşaqla davranmağı bacarmırıq. Onları görəndə şitlik edirik. Yalançı "usi-pusi"lər, əzizləmələr uşaqların ətini tökür. Bunu sevmirlər.

Mənim qızımın da böyüklərdən xoşu gəlmir. Heç cür başa düşə bilmir ki, adamlar niyə onu görəndə üstünə cumurlar, onu icazəsiz öpürlər, onunla dillərini əzə-əzə danışırlar.

İnsanların özünü ifadə etmək problemi var. Sevgini, sevinci, heyrəti, kədəri eybəcər ifadə edirik. Səmimi olmaqdan qorxuruq. Ölçü hissimiz yoxdu. İllər əvvəl dayım dedi ki, hara getsən, özünü ürəklə təqdim et, danışanda adamların gözlərinə bax, bacarıqlarından danış, uğurlarını sadala, çəkinmə. Bütün sivil dünyada gənclərə özlərini doğru ifadə etməyi, rahatca tanıtmağı öyrədirlər. Bizdə gənc əzilir. Ona görə də cəmiyyət əzilmişlərin çoxluğunda batır.

Bu yanaşma uşaqlıqdan başlayır. Uşaqlar bizimlə eyni hüquqa sahibdilər. Hətta daha artıq. Biz isə onlara oyuncaq, ev aksesuarı, şüursuz heyvan kimi yanaşırıq. Başa düşə bilmirik ki, qarşımızda şüuru, ağlı, hissi, hüququ olan insan dayanıb. Hə, indilik balaca insandı. Amma böyüyəcək. Biz sadəcə, ona doğru böyüməsi üçün kömək edə bilərik. Öhdəmizə bir sıra məsuliyyət düşür.

Toyda tanış bir qadın qızımı görüb bərkdən "ayalaa" edib üstünə getdi. Uşaq diksindi. Onu ilk dəfəydi görürdü. Geri çəkildi. Qadının niyə belə etdiyini anlamırdı. Qadın təəccüblə üzümə baxdı və qışqıra-qışqıra nəsə əzizləyici şeylər deyib uşağı zorla tutub öpməyə çalışdı. Uşaq ağladı. Dartınıb qadının əlindən çıxdı. Özümü itirdim. Anidən "niyə belə edirsiz" soruşdum. Qadın mat-mat baxdı.

Sevmir, mənim qızı icazə almadan onu öpməyə çalışanları sevmir. Onu görəndə dilini əzib danışanları sevmir. Yalnız ona hörmətlə yanaşanları bəyənir. Anlayır ki, hər öpmək istəyən doğrudan da sevən deyil. Uşaqlar saxtalığı görürlər. Özümüzə baxmayın, biz saxtalığa öyrəşmişik, ayırd edə bilmirik.

Ən sivil ölkələrdə uşaq hüquqları hər şeydən öncə gəlir.

Uşağına səsini qaldıran valideyni dəlixanaya aparırlar, polisə çağırırlar. Ağıllı adam niyə uşağa bağırsın? Uşaqla münasibətdə səbr, anlayış sərhədsiz olmalıdı. Həddimizi bilməliyik.

Böyüklər arasında xoşuna gələnlərin siyahısına baxıram.

O adamlardı ki, heç vaxt uşağın sərhədini keçməzlər, onunla şəxsiyyət kimi davranarlar. Ən əsası, zorla öpməzlər.

"Əşşi, uşaqdı, nə qanır" cümləsində bizim cəmiyyətin bütün bəlalarının səbəbi var. Qanır, yaxşı qanır. Diqqət etsəz, görərsiz. Qanmaz biz özümüzük - böyüklər.

Bugünlərdə bir qadın uşaqlarına əsəbləşib özünü bıçaqlayıb.

Psixoza baxın. Hamımızda o hiss olur. Amma tərbiyəli adam bunu özündə basdırmağın, yox etməyin yolunu bilir. Bunu özümüzə öyrətməliyik.

Rəhmətlik Vaqif Səmədoğlu müsahibəmizdə danışmışdı. Bir dəfə qızım uşağa qışqırdı. Neynirsən soruşdum. Tərbiyə edirəm dedi.

Əvvəlcə özünü tərbiyə elə dedim.

Özümüzü tərbiyə etmədən uşağı tərbiyə etməyə çalışırıq.

Mümkün deyil!

Cəmiyyətə baxanda görünmür ki?

# İslamiada ilə bağlı Bakıda ciddi təhlükəsizlik tədbirləri görülür

## Paytaxtda və ölkə boyunca güc strukturları asayişin qorunması üçün tam gücləndirilmiş rejimdə çalışır

**12-22 may tarixlərində Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək. Oyunlarla əlaqədar ölkəmizə 57 ölkədən 3 mindən artıq idmançı gəlib. Bu da İslamiada tarixində yeni rekorddur. Həmçinin 1000-ə yaxın rəsmi qonaqlarımız var. Eyni zamanda ölkəyə turist axını var. Xüsusilə ərəb ölkələrindən Azərbaycana axışan turistlərin sayı-hesabı yoxdur. Yarışların yüksək səviyyədə baş tutması üçün Bakının ən müxtəlif nöqtələrində yerləşən stadionlar, idman arenaları və qurğuları hazırdır. Azərbaycan buna qədər də genişmiqyaslı idman tədbirlərinə ev sahibliyi edib. 2 il əvvəl ölkəmizdə Avropa Oyunları keçirilib. Həmin vaxt da, bu gün olduğu kimi, oyunlar zamanı təhlükəsizlik məsələləri geniş müzakirə mövzularından idi.**



Bir neçə gün əvvəl Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-leytenant Mədət Quliyev Azərbaycanda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarında təhlükəsizliyin tam təmin olunacağı haqda açıqlama verib.

**M.Quliyev bildirib ki, İslam Həmrəyliyi Oyunları dövlət səviyyəli bir tədbirdir:** "Bu, dövlətimiz üçün çox vacib bir tədbirdir. Bilirsiniz ki, bu ili möhtərəm prezidentimiz "İslam Həmrəyliyi ili" elan edib və bu çərçivədə də Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu tədbirin təhlükəsizliyi təbii ki, tam təmin olunacaq".

Azərbaycanın xüsusi xidmət orqanları yarana biləcək problemlərin qarşısını almaq üçün ciddi tədbirlər görür. Hələ "Eurovision-2012" ərəfəsində böyük bir qruplaşma Azərbaycanın təhlükəsizlik qüvvələri tərəfindən aşkar olunaraq zərərsizləşdirilmişdi. Bakı-2015 I Avropa Oyunları zamanı da müəyyən qüvvələr təhdid xarakterli addımlar atmışdılar. Həmin vaxt bu təhdidləri edən şəxslərə, təxribat planlaşdıran qüvvələrə qarşı əməliyyat keçirərək, onları zərərsizləşdirmişdilər. Bu əməliyyatlar zamanı bir neçə təxribatçı məhv edilmiş, bir neçəsi həbsə alınmışdı.

İslam Oyunları zamanı önəmli məsələlərdən biri də qonaqların təhlükəsizliyinin təmin olunmasıdır. Belə məlumatlar var ki, Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlərin, dövlət başçılarının səfərlərinin təhlükəsizliyinin qorunmasında dünyanın ən inkişaf etmiş ölkələrinin xüsusi xidmət orqanları əməkdaşlarının təcrübəsindən də istifadə edilir. "Eurovision" yarışması, Avropa Oyunları zamanı da Rusiya, İsrail xüsusi xidmət orqanlarının peşəkar təhlükəsizlik əməkdaşlarının və texnoloji vasitələrin imkanlarından istifadə edildiyi iddia olunurdu...

**Qeyd edək ki, bu ilin yanvarında DTX rəisi, general-leytenant Mədət Quliyev mətbuata açıqlamasında Azərbaycanı terror təhdidlərindən qorumaq üçün bütün preventiv addımların atıldığını deyib. Xidmət rəisi qeyd edib ki, digər dövlətlərin Azərbaycana qarşı təhdidləri, maraqları var.** "Yaxın Şərqdə gedən proseslərin təhdidləri var. Lakin prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hüquq-mühafizə orqanları qətiyyətlə bu məsələləri həll edirlər"- deyə general-leytenant bildirib.

**DTX tərəfindən bölgələrdə keçirilən əməliyyatlara toxunan M.Quliyev qısa zamanda cinayətkarların, casusların məhv edilməsi üzrə əməliyyatlar keçirildiyini vurğulayıb:** "Əməkdaşlarımız onları saxlayan zaman silahlı müqavimətlə rastlaşdılar, lakin bunun qarşısını qətiyyətlə aldılar. Ümumiyyətlə, Azərbaycan xüsusi xidmət orqanları bu istiqamətdə tək işləmirlər, digər dövlətlərin xüsusi xidmət orqanları ilə birgə çalışırıq, məlumat mübadiləsi edirik".

Bu açıqlamada yer alan fikirlər də belə nəticəyə gəlməyə əsas verir ki, İslamiadada təhlükəsizliyin qorunmasında xarici dövlətlərin xüsusi xidmət orqanının dəstəyi istisna deyil.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Onlar da Avropa Oyunları keçiriblər... amma necə?

## Beynəlxalq yarışı keçirən ölkələrin təcrübəsində nələr olub...

**Bakıda keçiriləcək İslam oyunları ilə bağlı təlaş neçə vaxtdır ki, davam edir. Görünüşə görə, hələ uzun bir müddət də davam edəcək. Üstəlik, bu müddət ərzində təhlükəsizlik tədbirləri də maksimum həddə çatdırılıb. Yollardakı sıxlığın aradan qaldırılması üçün tətbiq olunan "sarı zolaq" yasağını da yaddan çıxarmaq olmaz.**



Öncə bu oyunların qısa tarixçəsi və keçirildiyi ölkələrdə tətbiq olunan tədbirlər barədə. Qədim Yunanıstanda mövcud olmuş olimpiya oyunlarının bərpa olunması təşəbbüsünü XIX əsrin sonlarında fransız ictimai xadimi baron Pyer de Kuberten təklif edib. Onun dövründə Yay Olimpiya Oyunları kimi tanınan bu beynəlxalq tədbir 1896-cı ildən etibarən hər 4 ildən bir keçirilir. Bura dünya müharibələrinin baş verdiyi illər daxil deyil.

1924-cü ildə Qış Olimpiya Oyunları təsis edildi. Əvvəllər yay və qış oyunları eyni ildə keçirilirdi, lakin 1994-cü ildə Qış Olimpiya Oyunlarının keçirilməsi yay oyunlarına nəzərən iki il irəli çəkilib. 2012 Yay Olimpiya Oyunları həmin ilin 27 iyul-12 avqust tarixləri arasında Londonda keçirilib. Bu ölkənin olimpiya təcrübəsinə diqqət edək.

Londonda Yay Olimpiya Oyunlarının keçirilməsi barədə qərar 2005-ci ilin 6 iyulunda verilib. Qərar veriləndən bir gün sonra isə maraqlıdır ki, Britaniyanın paytaxtında 50 nəfərin ölümü ilə nəticələnən serial partlayışlar baş verib. Və məhz bu hadisədən sonra təşkilatçılar təhlükəsizlik tədbirlərinə maksimum diqqət ayırıblar. Bu məqsədlə büdcədən 1 milyard dollar vəsait ayrılıb. Və bu əməliyyatın əsasını Londona hərbi avadanlıqların, əlavə təhlükəsizlik aparatlarının yerləşdirilməsi təşkil edirdi. Britaniyanın təhlükəsizlik xidməti sakit və diqqəti cəlb etməyən iş prosesi həyata keçirirdi. İş çərçivəsində isə yarım milyona yaxın insanın sənədləri yoxlamadan keçirilib.

Yoxlama təkcə tamaşaçıları yox, eyni zamanda idmançıları, nümayəndə heyətini, 200-ə yaxın komandanı, müxtəlif ölkələrin idman məmurlarını, olimpiya obyektlərinin daimi işçilərini də əhatə edib. Britaniya qəzetləri isə bunu 2-ci Dünya müharibəsindən sonrakı ən böyük yoxlama adlandırıblar. Olimpiadanın təhlükəsizliyi ölkənin hərbi qüvvələri və polis tərəfindən təmin olunub. Ümumi hesabla götürsək, Londondakı yay oyunlarına 13 min polis işçisi və 17 min hərbi qulluqçu cəlb edib. Və burada söhbət heç də hərbi qulluqçuların gözlə görünən və birbaşa müdaxiləsindən getmirdi. G 4S mühafizəçilərin olimpiadaya hazırlığı üçün 57 milyon funt məbləğində vəsait ayrılmışdı. Amma tədbirin başlanmasına 2 həftə qalmış onun rəhbərliyi etiraf etdi ki, hazırlıq üçün əməkdaşların sayı yetərincə deyil. Britaniya parlamentinin deputatlarından biri isə baş verənləri "biabırçı qarışıqlıq" adlandırdı.

Nəticədə hakimiyyət təcili qaydada 5 min nəfər hərbi qulluqçunu da bu prosesə cəlb etdi. Onların əksəriyyəti öz məzuniyyətlərini yarıda kəsmək və ya başqa vaxta keçirmək məcburiyyətində qalıb. Bu hərbçilərin funksiyası sırasında həm də oyunları izləməyə gələnlərin yoxlamadan keçirilməsi vardı. Bu yoxlama proseduru aeroportdakı analoji yoxlamalara bənzəyirdi. Çünki aparatla yoxlama nəticəsində şəxsi əşyalar da nəzarətdən keçirilirdi. Bununla yanaşı, Britaniya mətbuatı polislərin və hərbi qulluqçuların bu proses zamanı çox mehriban, gülərüzlü davranması barədə tez-tez yazırdılar.

Göründüyü kimi, hər ölkə bu tədbirlər çərçivəsində müvafiq addımlar atıb - büdcəsinə, təhlükəsizlik qaydalarına və daha nələrə görə. Odur ki, ölkədə də müəyyən önləyici tədbirlərin keçirildiyini görüb təəccüblənməyin. Bu, yarışın xarakterindən irəli gəlir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017

# Sabiq komandirdən Şuşanın işğalına dair mühüm açıqlamalar

**Şuşanın işğalından 25 il ötdü. Hər il bu vaxtlar 1992-ci ilin may günlərində Şuşa ətrafında gedən proseslər müzakirə edilir. Strateji və qədim şəhərimizin işğalı ilə bağlı müəmmalar ilk gündən mövcud olub və bu məsələlər hər zaman müzakirə mövzusudur. Xüsusilə o zaman siyasi hakimiyyətin məsuliyyətsizliyi, müdafiə işinin düzgün qurulmaması, ən əsası, xəyanət nəticəsində Şuşanın düşmən əlinə keçməsi ilə bağlı çoxsaylı fikirlər var.**

## Arif Paşa: "Azərbaycan bəlkə nisbətən az itki ilə həmin prosesləri yaşayıb"

**1992-ci ilin 30 aprelinədək Laçın alayının komandiri olmuş Arif Paşa "Yeni Müsavat"a açıqlamasında yalnız işğal tarixində Şuşa və digər ərazilərimizin xatırlanmasından təəssüfləndiyini dilə gətirdi:** "İldə bir dəfə bu günlər xatırlanır, sonra sanki belə hadisələr olmayıb kimi davranılır. Bu çox qəribə bir tendensiyadır. Şuşanın necə itirildiyi barədə indiyə qədər çox fikirlər demişik. Bunu dəfələrlə demək tariximizdə nələrisə dəyişmir. Şuşanı necə geri qaytarmaq, Xocalının qisasını necə almaq, şəhid ailələrinin vəziyyətini necə düzəltmək barədə müzakirələr olmalıdır. Biz indi niyə şəhidləri bölürük? Məsələn, son vaxtlar şəhid olanlarla əvvəllər həyatlarını itirənlər arasında bölgülər aparmamalıyıq. Torpaqlarımızın düşmən tapdağı altında olmasına, qürurumuzun tapdalanmasına nə qədər dözməliyik? Təəssüflər olsun ki, bu gün bu suallara cavab tapılmır. Xocalını yaşamış, Şuşa, Laçın və digər ərazilərin işğalını görən hər kəs hər gün o anı yaşayır. İşğal olunan ərazilərimiz bütövlükdə Azərbaycan torpaqlarıdır. Bölmək olmaz ki, Şuşa şuşalının, yaxud digər yerlər həmin ərazilərə məxsus insanların torpaqlarıdır. Torpaq itkisi ilə xalq və dövlət olaraq heç zaman barışmamalıyıq".

**Sabiq komandir Şuşa və Laçının işğalını bu cür şərh etdi:** "Əgər o zaman Şuşa və Laçın yerli qüvvələrin ümidinə qalsaydı, fərqli vəziyyət ola bilərdi. Amma bu gün Ukraynanın Krım məsələsinə baxanda çox şeyi dərk etmək olur. O zaman ərazilərimizin işğalında birmənalı Rusiyanın iştirak etdiyi ortadadır. Əgər insan və hərbi resursu, eləcə də digər cəhətlərdən üstün olan Ukraynanın başına bu cür oyunlar açılırsa, Ukraynadan zəif olan Azərbaycan ətrafında zamanında gedən prosesləri fərqli dəyərləndirirəm. Zamanında ittiham etdiklərimi indi etmirəm. Bəlkə Azərbaycan nisbətən az itki ilə həmin prosesləri yaşayıb. Biz çox güclü və hədsiz dərəcədə məkrli bir rəqiblə üz-üzə olmuşuq. Bu səbəblərdən milli birliyə daha çox önəm verməliyik. Millətin milli oyanışına nail olmalıyıq. Bizə heç yerdən kömək yoxdur. Azərbaycanın xilası və köməyi bu xalqın milli iradəsindədir. Ancaq bu yolla sabahkı taleyimizi görmək mümkündür. Uğurlu diplomatik gedişləri inkar etmirəm. Bunlar vacib amillərdir. Milli iradənin güclü olması millətin taleyini həll edir. Əks halda, daha çox fəlakətlərlə üz-üzə qala bilərik. O zaman Şuşanın müdafiəsi hədsiz çətin məsələ idi. Amma yenə də müəyyən proseslər gedirdi. Əsas səbəb Rusiyanın müdaxiləsi idi. Azərbaycanı Rusiya əsarətinə yenidən salmaq üçün fəaliyyət aparılırdı. O zaman ordu yenidən qurulmuşdu. Bəzən şahidi oluram ki, o zaman xaosun olduğunu deyirlər. İnsanlar 10-cu sinfə çatmaq üçün birinci sinfi oxumalıdırlar, bunların heç biri olmadan mümkün deyil. Yeni yaranmış ordu barədə müxtəlif fikirlər demək, xaosun olduğunu söyləmək düzgün deyil. O zaman ordu da var idi, ruh yüksəkliyi də. O zaman ordu quranların əməyini yerə vurmaq olmaz. Çoxlu şəhidlər verildi. Bacardığımız qədər qoruya bildik. O dövrdə əsas faktor Rusiya idi. Təchizat-təminat baxımından ciddi problem var idi. Ümumi komandanlıq yeni-yeni qurulurdu. Yeni qurulan dövlətlər kimi bizdə də ümumi proseduralar var idi, bunları da həyata keçirdik. Amma bir daha deyirəm ki, ana xətt Rusiyanın müdaxiləsi idi. Bunun nəticəsində ərazilərimizi itirdik. AXC-nin kifayət qədər müsbət rolu oldu. Döyüşənlərin əksəriyyətini milli təfəkkürlü cəbhəçilər təşkil edirdi. Cəbhəçilər beş mindən yuxarı şəhid verdilər. Burada məsuliyyəti bir istiqamətə tuşlamaq düzgün deyil. Məsuliyyət bütövlükdə xalqa məxsusdur. Bu gün heç bir siyasi partiyanın üzvü deyiləm. Amma insanlar ədalətsiz danışanda çox ağır təsir edir. Əgər sən keçmişini ittiham edirsənsə, əmin ol ki, gələcək də səni ittiham edəcək. Keçmişimizə hörmətsiz yanaşmaq lazım deyil. Yalan danışmaq da lazım deyil. Şəxsən nəzarətimdə olan hərbi hissədə dəmir intizam var idi. Hətta bu intizam hazırda bəlkə də elə hərbi hissələr var ki, orada da yoxdur. İnsanlar torpaq uğurunda savaşırdılar, onlarda yüksək vətən sevgisi var idi. Bunlara ləkə salmaq heç kimə yaraşmır. Bu bir şərəf tarixi idi. Torpaqlarımız uğrunda gedən döyüşlərin hər biri şərəf tarixi-mizdir. Rusiya kimi nəhəng dövlət Azərbaycanla savaşırdı".



**"Əgər o zaman Şuşa və Laçın yerli qüvvələrin ümidinə qalsaydı, fərqli vəziyyət ola bilərdi"**

❑ Cavanşir ABBASLI

# Cahangir Hacıyev siyasi məhbus məsələsinə dair ikibaşlı danışdı

## "Siyasi məhbus olmaq üçün müraciət etməmişəm, amma..."; onun məsələyə dair yaydığı bəyanatda hakimiyyətə mesaj verdiyi sezilir...

**Həbsdə olan sabiq bankir Cahangir Hacıyev adının siyasi məhbuslar sırasında hallandırılması məsələsinə aydınlıq gətirib. Cahangir Hacıyev vəkilləri vasitəsilə bəyanat yayıb.**

Musavat.com xəbər verir ki, 15 il müddətinə azadlıqdan məhrum etmə cəzası alan Hacıyev siyasi məhbus kimi tanınması üçün heç bir addım atmadığını deyib.

"Mən Cahangir Hacıyev olaraq, siyasi məhbus kimi tanınmaq istiqamətində heç bir addım atmamışam. Vəkillərim də bu məqsədlə heç bir quruma, heç bir şəxsə müraciət etməyib"- deyə Cahangir Hacıyev bəyanatında qeyd edir.

Beynəlxalq Bankın İdarə Heyətinin 15 ilə yaxın müddətdə sədri olmuş Cahangir Hacıyev bəyanatında bir daha məhkəməsinin ədaləti aparılmadığına toxunub.

**O, mayın 8-də apelyasiya şikayətinin baxıldığı məhkəməsində vəkillərinin vasitətlərinin təmin edilmədiyini və hüquqlarının pozulduğunu deyib:**

""Siyasi məhbus" kimi tanınmaqdan ötrü müxtəlif vasitələrə əl atmağım haqda bir sıra saytlarda yazılanlara etiraz edirəm. Həmin yazılar sifarişlə yazılır. Sifarişçilər də Beynəlxalq Bankla bağlı həqiqətlərin gizli qalmasında maraqlı olan adamlardır.

Mənimlə bağlı məhkəmə prosesi ədalət mühakiməsinin minimal standartlarından da çox uzaqdır. Məhkəmə də müəyyən məsələlərin üzə çıxmasının qarşısını almağa çalışır. Mənə "Mekon" MMC və "Unioil" MMC ilə bağlı məni-mə ittihamı verilib. Amma əllərində rəsmi sənədlər var ki, həmin vəsait "Elite Construction"ın səhmlərinin alınmasına sərf olunub. Məhkəmədə də bu məsələ ilə bağlı müvafiq qurumlara sorğu göndərilməsi haqda vəsatət qaldırsalar da, təmin olunmadı. Bakı Apelyasiya Məhkəməsində vəkillərimə çıxış etməyə belə, imkan verilmir. Vəkillərim məhkəməyə 12 vəsatət təqdim edib. Məhkəmə bir qərarla bu vəsatətlərin heç birinin təmin olunmadığını elan edir. Halbuki o vəsatətlərin təmin olunması bir xeyli həqiqətləri ortaya çıxarardı. Üstəlik, qanunda açıq şəkildə yazılıb ki, verilən vəsatətlər bir-bir elan olunmalı, müzakirəyə çıxarılmalıdır. Bizim məhkəmədə isə qanunun bu tələblərinin heç birinə əməl olunmadı. Bunlar Beynəlxalq Bankla bağlı həqiqətlərin açılmasına əngəl yaratmaq, dövlət başçısının göstərişinə qarşı çıxmaqdır. Çünki prezident bu məsələlərin ciddi araşdırılmasına göstəriş verib".



Sabiq bankir bəyanatının sonunda xatırladıb ki, siyasi məhbus kimi tanınmaq üçün heç bir addım atmasa da onun işinə baxılarkən prosessual qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması, onun ədalətli məhkəmə araşdırması hüququndan məhrum edilməsi siyasi məhbus kriteriyalarından biridir.

C.Hacıyevin bu bəyanatı əslində ikibaşlı bir oyun təsiri bağışlayır. O, açıq şəkildə hakimiyyətə mesajlar ötürür və işinə onun istədiyi kimi baxılmayacağı təqdirdə siyasi məhbus amilindən yararlanacağına işarə edir.

Qeyd edək ki, C.Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktoru vəzifəsində işləmiş Anar Sultanov, bankın Mərkəzi filialının müdiri işləmiş İlqar Abdullayev, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov, Mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov, bankın Nəqliyyat filialının direktoru işləmiş Kənan Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda AFB Bankın sədri olan Məmməd Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş Azad Cavadov Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunaraq həbs ediliblər.

C.Hacıyev 15 il, Azad Cavadov 10 il 11 ay, bankın Mərkəz filialının direktoru işləmiş Yusif Ələkbərov 7 il 6 ay, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov 6 il 5 ay müddətinə azadlıqdan məhrum ediliblər.

❑ İ.MURADOV

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017



# Cahangir Hacıyev niyə siyasi məhbus ola bilməz...

## **Anar Məmmədli:** "Bu məsələ işçi qrupumuzda müzakirə olundu və qərara gəldik ki, o, siyasi məhbus deyil"

**Beynəlxalq Bankın İdarə Heyətinin hazırda həbsdə olan sabiq sədri Cahangir Hacıyevin adının siyasi məhbuslarla bağlı hazırlanmış 160 nəfərlik siyahıda olması ciddi qalmaqala səbəb olub. Əksəriyyət sabiq bankirin isminin siyasilərlə eyni siyahıya salınmasının əleyhinə olsa da, onun işində siyasi çalarların olduğunu iddia edənlər də var.**

İndiyə qədər keçmiş bəzi hakimiyyət məmurlarının siyasi məhbus elan olunduğu önə çəkilərək, C.Hacıyevin də bu statusa yiyələnməsinin mümkünlüyü vurğulanır. Xüsusilə, onların məhkəmə zamanı siyasi çıxışları bu adı almasına yol açdığı qeyd edilir.

94 nəfərlik digər siyasi məhbus siyahısının hazırlanmasında yaxından iştirak edən, **Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDTM) rəhbəri, keçmiş vicdan məhbusu Anar Məmmədli** "Yeni Müsavat"a açıqlamasında sabiq bankirin siyasi məhbus adını almasının qeyri-mümkün olduğunu bildirdi: "Biz vahid siyahını hazırlayarkən Avropa Şurası Parlament Assambleyasının qəbul olunmuş siyasi məhbuslar anlayışına və oradakı kriteriyalara əsaslanmışıq. Həmin kriteriyalar ümumiləşdirilib. Azərbaycan Avropa Şurasının üzvü olduğu üçün bizim qrup həmin kriteriyalara əsaslanmağı qərara aldı. İkinci tərəfdən, bu məsələ işçi qrupumuzda müzakirə olundu və qərara gəldik Cahangir Hacıyev siyasi məhbus deyil. Mən qrupumuzun mövqeyini müdafiə edirəm və fərqli bir mövqeyim yoxdur. Cahangir Hacıyevin fəaliyyətinə gəlincə, həbs olunana qədər dövlət məmuru olub, heç bir siyasi fəaliyyəti olmayıb, ölkənin, iqtisadi, sosial, biznes, bazar münasibətləri və ya siyasi-iqtisadi yöndə çıxışları olmayıb. Tənqidi yöndə olan şəxs də olmayıb, hər hansı bir təşkilata rəhbərlik etməyib, məqalələrlə çıxış edən şəxs olmayıb. O həbs olunana qədər konkret siyasi fəaliyyətlə məşğul olması barədə əlimizdə heç bir fakt yoxdur. Bu şəxs həbs ediləndən sonra özü, vəkilləri, ailəsi bildirdi ki, bu insana qarşı münasibətdə ayrı-seçkiliyə yol verilir, ədalətli mühakimə hüququ pozulur".

**A.Məmmədli sabiq bankir kimi çoxlarının qanun pozuntuları ilə üzləşdiyini qeyd etdi:** "Bu məsələni araşdıranda, əlbəttə, düşünə bilərik ki, Cahangir Hacıyev prosedur pozuntularına məruz qalıb. Hazırda Azərbaycandakı qanun pozuntuları nəinki Cahangir Hacıyevin, çoxsaylı insanların başına gəlir. Təkcə siyasi deyil, adi vətəndaşlar da bu cür hallarla üzləşirlər. Məhkəmə və istintaq proseslərində də tək hüquqları pozulan Cahangir Hacıyev deyil ki. Mən ümid edirəm ki, o bu məsələni Avropa İnsan Haqları Məhkəməsinə qədər aparacaq. Bu məhkəmədə indiyə qədər qazanılmış xeyli sayda işlər var. Cahangir Hacıyevin belə perspektivi var. Yəni vəkilləri işləri hazırlayıb Avropa Məhkəməsinə göndərsələr, Cahangir Hacıyev də orada qazana bilər. İstənilən halda onunla bağlı baş verən qanun pozuntuları onu məsuliyyətdən azad etmir. Özü də bir neçə dəfə məhkəmədə əməllərini etiraf edib. Uzun zaman hakimiyyətdə təmsil olunan, iqtidara xidmət edən, bir sıra cinayət xarakterli əməllərə yol verən birisinin birdən-birə siyasi məhbus olması iddiası ciddi məsələdir. Biz belə bir iddia ilə çıxış etmirik".

❑ Cavanşir ABBASLI

# "Şərurlu İsfəndiyar" ""Hafka"nın bankına borcum yoxdur" deyir

## İş adamı "Zaminbank"ı məhkəməyə verdi, milyon manatlıq əmlakının davasına qalxdı

**"Hafka" kimi tanınan hazırda müflis vəziyyətdə olan iş adamı Hafiz Məmmədovun bankının ("Bank of Azerbaijan") müflis olaraq bağlandığı, lisenziyasının alındığı məlumdur. Virtualaz.org xəbər verir ki, "Bank of Azerbaijan"la bağlı problemin səbəbləri haqda müxtəlif məlumatlar yayılıb.**

Bir vaxtlar nəqliyyat naziri Ziya Məmmədovla biznes ortağı olan "Hafka"nın digər biznes aktivləri kimi həmin bankın da bu ortaqlığın pozulmasının nəticəsi olaraq çökdüyü haqda danışılıb. Sayt bank sənədlərinə istinadən yazır ki, "Bank of Azerbijan"ın müflis olmasının əsas səbəbi Ziya Məmmədov da daxil olmaqla bir çox oliqarxların götürdükləri milyonlarla dollarlıq krediti ödəməkdən imtina etməsidir.

Məsələn, "Bank of Azerbaijan"ın borcluları arasında keçmiş nəqliyyat naziri Ziya Məmmədovun şirkətlərinin və yaxın adamlarının adları var. Məlum olur ki, Z.Məmmədovun ailə şirkəti olan «ZQAN Holding»in *(sonradan adını "Garant Holding" olaraq dəyişdi)* tərkibində olan müxtəlif şirkətlər qısa müddət ərzində bankdan 5 milyon dollar və elə o qədər də manat kredit götürüblər. Bu da yetməyib, «ZQAN Holding»in maliyyə direktoru Kamran Niftəliyev öz adına bankdan 1.65 milyon manat kredit götürüb.

Ziya Məmmədovun İlqar Əliyev adlı qohumu isə bankdan 1 milyon (manat və dollarla) götürüb. Habelə keçmiş nazirin oğlu Anar Məmmədov özünün nəqliyyat şirkəti üçün bankdan 4 milyon dollar kredit alıb. "Şərurlu İsfəndiyar" kimi tanınan tikinti biznesmeni "Hafka"nın bankından 1.1 milyon manat götürüb, krediti hansısa Şahnisə Məmmədovanın adına rəsmiləşdirib. Üstəlik, "Bank of Azerbaijan"ın filiallarından biri ancaq "Şərurlu İsfəndiyar" və onun qohumları üçün işləyib.

Siyahı davam edir və belə məlum olur ki, hazırda "Bank of Azerbaijan"ın geri qaytarılmayan kreditləri 160 milyon dollardır. Başqa sözlə, "Hafka"nın bankını əməlli-başlı talayıblar və indi onun keçmiş sahibinin harayını eşidən, həmin borclulardan pulları alıb qaytaran yoxdur. Üstəlik, "Hafka"nın bankını boşaldanların heç birinin barəsində cinayət işi başlanmayıb.

**"Şərurlu İsfəndiyar" "Yeni Müsavat"a deyib ki, onun "Bank of Azerbaijan"a borcu yoxdur:** ""Hafka"nın bankına borcum yoxdur. Mənim özümün banka qarşı davam var".

**"Şərurlu İsfəndiyar" bildirib ki, bir neçə il əvvəl "Mur-Ay" MMC bir çox vətəndaşlardan pul yığıb onlara ev vəd edib. Sonradan isə vədə əməl olunmayıb. İşə dövlət qurumları qarışıblar. Bundan sonra binanın tikilməsi və aldadılan vətəndaşlara təqdim olunması onun şirkətinə tapşırılıb:** "Dövlət mənə 10 milyon manat kredit verdi. Bu krediti ona görə verdilər ki, "Mur-Ay" MMC-də zərərçəkənlərin evini tikib verim. Mən də tikib verdim. Amma bu dəfə də məni aldatdılar. Mən 10 milyonluq krediti "Zaminbank"a ödəmişəm. Bank həmin pulu Mərkəzi Banka ödəməyib. Oyun oynayırlar, mən də ortada qalmışam. Ona görə də mənim 10 milyon kredit götürərkən girov qoyduğum əmlakları qaytarmırlar. Mənim "Bank of Azerbaijan"da kreditim yoxdur. Mən "Zaminbank"ı 3 ay əvvəl məhkəməyə vermişəm. İşə İqtisad Məhkəməsində baxırlar. Mən öhdəliyi yerinə yetirmişəm. Oyun oynamağa başlayıblar, əmlakları vermirlər. Gedib əlbəyaxa olmayacağıq ki? Vermişik məhkəməyə, gözləyirik".

"Zaminbank"ın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun rəhbərliyi altında "xortumlanması" haqda əvvəllər də bilgilər olub. Mümkündür ki, "Şərurlu İsfəndiyar"ın "Zaminbank"a ödədiyi pullar hazırda Mahmudovun hansısa offşor hesablarında yatır. Əlimizə çatan bilgilərə görə, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov özünün keçmiş işçiləri - Elşad Mahmudov, Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyev, Antiterror İdarəsinin rəis müavini İlqar Əliyev, Monitorinq Mərkəzinin rəhbəri Teymur Quliyev, Fərhad Atayev və s. vasitəsilə banklara qarşı əməliyyatlar qurub. Məsələn, 2012-ci ilin martında Azərbaycanın ən qabaqcıl banklarından olan "Texnikabank"a qarşı MTN əməliyyat keçirdi. Həmin əməliyyatdan sonra bu bank E.Mahmudovun qudası Cahangir Hacıyevin nəzarətinə keçmişdi. İlk beşlikdə olan "Texnikabank" tez bir zamanda boş qazana çevrildi. MTN-in "xortumladığı" banklar sırasında "Şərurlu İsfəndiyar"ın 10 milyon ödədiyi "Zaminbank"la yanaşı, "Bank of Baku", "Standartbank", bu gün 160 milyon ümidsiz kredit portfeli ilə müflis elan edilən "Bank of Azerbaijan" da var. Beynəlxalq Bank vasitəsilə mənimsənilən milyardlar haqda isə indiyədək çox danışılıb.

Bir müddət əvvəl xəbər yayılmışdı ki, MTN-in Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin sabiq şöbə rəisi, polkovnik Füzuli Əliyev yüzlərlə iş adamının müflis edilməsi ilə nəticələnən qurama əməliyyatlar təşkil edib. Bu qanunsuz əməlləri ilə Eldar Mahmudova milyonlar gətirən Füzuli Əliyevin general rütbəsi üçün artıq təqdimatı hazırlanıb. Ancaq Eldar Mahmudovun "vurulması" ilə MTN-in dağılması onun general olmasının üstündən xətt çəkib.



Hazırda Füzuli Əliyev məhkəmə qarşısındadır. Eldar Mahmudovun Füzuli Əliyevin vasitəsilə hazırda fəaliyyəti dayandırılan "Zaminbank"ın rəhbəri Nadir İsmayılovla işbirliyi olması haqda xəbərlər də var. Belə ki, sabiq nazir Azərbaycanda cinayət yolu ilə qazandığı yüz milyonlarla vəsaitin bir hissəsini Beynəlxalq Bankla yanaşı, həm də adıçəkilən bank vasitəsilə xaricə çıxarırmış. Məlumatlarda qeyd olunur ki, Eldar Mahmudovun ailə üzvlərinin adına Avropada alınan mülklərin pullarının ödənişi də bu bank vasitəsilə həyata keçirilib. Bundan başqa, "Zaminbank" rəhbərliyinin iş adamlarının hesabları barəsində MTN-ə davamlı informasiyalar ötürməklə bank sirri prinsiplərini pozduğu haqda da bilgilər var. Ən maraqlı məqam odur ki, Füzuli Əliyevin qardaşı Elşən Əliyev məhz bu bankda yüksək vəzifədə olub. E.Əliyevin vəzifəsinin verdiyi imkanlar hesabına bankın müştəriləri haqda məlumatlar rahat şəkildə Eldar Mahmudovun masası üzərinə yol tapıb. "Şərurlu İsfəndiyar"a 10 milyon "atan" bankın rəhbəri Nadir İsmayılov hazırda ölkədə deyil. O, Sankt-Peterburq rotel və restoranlara sahibdir. Belə məlumatlar var ki, qapanan bankın rəhbəri hazırda Sankt-Peterburqda biznesini idarə edir. "Şərurlu İsfəndiyar"ın onun vaxtilə rəhbərlik etdiyi bankı məhkəməyə verməsindən bəlkə də xəbərsizdir...

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017

**Bu gün Qarabağ qazisi, tanınmış jurnalist Rey Kərimoğlunun 50 yaşı tamam olur. Vətən uğrunda döyüşən, illərlə Qarabağ əlillərinin, şəhid ailələrinin hüquqları üçün savaşan bu insanı yubileylə bağlı redaksiyamıza dəvət edib, onun keçdiyi həyat yoluna işıq saldıq.**



# 50 yaşlı Rey Kərimoğlunun üç arzusu

## Tanınmış jurnalist və Qarabağ qazisi: "Bəlkə də Allah məni ona görə sağ saxlayıb ki..."

***- Rey bəy, öncə sizi yubiley münasibətilə kollektivimiz adından təbrik edirik. 50 yaşında olmaq, bir əsri yarılamaq necə bir hissdir? Geriyə baxanda nələr düşünürsünüz?***

- 50 yaşı tamamlamaq heç də düşündüyümüz kimi, qeyri-adi bir hiss deyil. Düzü, heç bu haqda düşünməyə vaxtım da olmayıb ki, 50 yaşında olmaq necədir? 50 yaş yaxşı yaşdır. Sadəcə, buradan dönüb keçdiyim həyat yoluma baxanda o qədər keşməkeşli, çətin yollar keçmişəm ki... Mənə təsir edən əsas məsələ 50 yaşımı Qarabağsız keçirməyimdir. Əvvəllər fikirləşirdim ki, 50 yaşıma qədər Qarabağ azad olunacaq, gedib Ağdamda, öz kəndimizdə yaşayacağam, ömrümü orada başa vuracağam. Həmişə belə düşünürdüm. Ağlıma gəlməzdi ki, 50 yaşımı Qarabağsız keçirərəm. 50 yaş deyəndə ağlıma gələn ancaq o olur ki, bu günə qədər torpaqlarımıza qayıda bilmədik.

***- 50 illik həyat yolunuzdan danışın... Necə bir ailədə doğulmusunuz, necə keçib uşaqlığınız, gəncliyiniz, müharibə illəri...***

- 1967-ci il may ayının 9-da Ağdam rayonunun Şıxbabalı kəndində, sadə bir fəhlə ailəsində anadan olmuşam. Ancaq hərbi xidmətə payızda getdim deyə, valideynlərim doğum tarixini 9 iyul kimi qeydiyyatdan keçiriblər. Adım da fərqli bir addır, hamı soruşur ki, bu adı haradan qoyublar. O vaxt kəndimizdə Rey adlı çox hörmətli bir kişi olub. Ağdamda çox böyük hörmət sahibi olub. Ona görə mənim də adımı Rey qoyublar. Atam dülgər olub. Böyük Vətən müharibəsinin iştirakçısı olub, orada fərqlənib, medalları, təltifləri olub. Dülgər olmasına baxmayaraq, Ağdamda Kommunist Partiyasının Təşkilat Komitəsinin rəhbəri idi. Atam müharibəyə gedəndə orada bir rus qadınla evlənib, mənim orada bir qardaşım var. 2007-ci ildə gedib onu tapdım. Atam isə 1996-cı ildə rəhmətə getdi. Öz ailəmizdə isə 3 qardaş, bir bacı olmuşuq. Mən orta məktəbdə oxuyanda belə bir qayda var idi ki, rus dilini bilən adamların hərbi məktəbə qəbulu asan olurdu. Mən də rus dilini yaxşı bilirdim, ona görə də gəlib imtahan verdim. Ukraynada ali hərbi məktəbə daxil oldum. Ancaq qardaşlarım məni orada oxumağa qoymadılar. 1985-87-ci illərdə sovet ordusu sıralarında xidmət etmişəm. Əvvəlcə Ağdam Kənd Təsərrüfatı Texnikumunun inşaat, sonra isə Sankt-Peterburq Xarici İqtisadi Əlaqələr və Hüquq İnstitutunun hüquq fakültəsini bitirmişəm. Hərbi xidmətə gedənə qədər sovxozda, çaxır zavodunda işləmişəm. Hərbi xidmətdən sonra Ağdamda kinoteatrda kinomexanik kimi işə düzəldim. 1991-ci ildə Ağdamda artıq gənclər orduya yazılırdı, mən də getdim yazıldım. Müharibədə başımıza gələnlər də hər kəsə bəllidir.

***- Cəbhədə vuruşduğunuz illəri necə xatırlayırsınız?***

- Mən cəbhə xatirələrimin əksəriyyətini lent.az-da yazdım, indi o yazılar APA Holdinqin dəstəyi ilə kitab kimi nəşr olunacaq. Hazırda çapa hazırlanır. Müharibədə gördüklərimdən yazılması mümkün olan hər şeyi orada yazmışam. Elə şeylər də var ki, nəinki mətbuatda, heç dostlar arasında da danışmaq olmur. Çünki müharibə çox dəhşətli hadisədir. Mən orada çox qarışıq proseslərin şahidi oldum. Elə şey var ki, hərbi sirdir. Biz ümidliyik ki, bir gün torpaqlarımız azad olunacaq. Ona görə də ehtiyat edirəm ki, həmin məsələləri danışsam, bu işə mane olaram. Müharibə böyük fəlakətdir, ancaq bizim başqa yolumuz yoxdur. Sülh danışıqlarına inanmıram. Bununla paralel, hərbidə də addımlar atılmalıdır. Zakir Həsənovun təyin olunmasından sonra orduda bir çox parametrlər üzrə müsbət dəyişikliklər olub. Allahın köməyi ilə torpaqlarımızı azad edəcəyik.

Müharibə xatirələrimdə çox acı insan taleləri var. 18-19 yaşında cavanlarımız olub ki, bu dünyadan nakam köçüblər. O hadisələrdən sonra həmişə fikirləşirdim ki, kaş orada dostlarımla bir yerdə mən də öləydim, bu hadisələri görməyəydim. Ancaq xatirələrimi yazdıqda fikirləşdim ki, bəlkə də Allah məni ona görə sağ saxlayıb ki, o gənclərin həyatını yazım. Çünki onlar haqqında heç kim yazmayıb. Onlar vətən uğrunda necə iztirablar çəkiblər. Bəlkə ona görə sağ qaldım ki, onlardan yazım, onlar unudulmasın. Müharibədən sağ gəlmiş uşaqların içində məndən də çox dəhşətlər görmüş insanlar var. Ancaq onlar mənim kimi yaza bilmirlər, dost məclislərində danışsalar da, mətbuata çıxıb danışa bilmirlər. Ona görə də xatirələrimi yazdım, torpaqlarımız işğaldan azad olunduqdan sonra yaza bilmədiklərimi də danışacağam.

***- Qarabağ müharibəsi həyatınızdan nələri aldı və təzadlı olsa da, sizə nələri qazandırdı?***



**"Elə şeylər var, nəinki mətbuatda, heç dostlar arasında da danışmaq olmur"**

- Müharibə mənim gəncliyimi aldı. İlham Məhərrəmov adında bir Qarabağ əlili var, o gənclər günündə bir status yazmışdı ki, bəs bizim gəncliyimiz necə oldu? Biz nədən danışaq? 22 yaşında yatağa, əlil arabasına məhkum olan insanlar oldu ki, onlar gəncliyin nə olduğunu bilmədilər. Əvəzinə nə verirsən ver, hamısı boşdur. İki ayağını itirən insana milyon manat versən, nə dəyişər? Kimdənsə soruşsalar ki, gəl, sənin iki ayağını kəsim, əvəzində 1 milyon manat verim, kim razı olar? Heç kim razı olmaz. Ancaq onlar vətən naminə getdilər, sağlamlıqlarını, canlarını qurban verdilər. Bu işdə qazanc yoxdur. Qazanc yalnız şəhidlik və qazilik adıdır ki, o hər bir vəzifədən üstündür. "Bütün vəzifələr gəldi-gedərdi, ancaq şəhidlik və qazilik əbədidir". Bu, Qazilər Birliyinin sədri Etimad Əsədovun sözüdür. O adı heç kim pulla ala bilməz. Müharibə mənim gəncliyimi, uşaqlıq xatirələrimi aldı. Mənim uşaqlığımın, məktəb illərimin keçdiyi kənd indi işğaldadır, oraya əlim çatmır. Məktəb xatirələrində hamının ən saf duyğuları var, ilk sevgisi var... Orada o qədər iklər var ki... İndi onlara əlimiz çatmır. Ona görə də bunlar mənə çox ağırdır. Müharibə olmasaydı, mənim həyatım başqa cür ola bilərdi. İnşaat sahəsində mənim arzularım var idi. Müharibədən sonra qaçqınlıq həyatı yaşadıq. Təhsilsiz, işsiz insanlar taleyin ümidinə qaldı. Sağlamlığını itirən kim, övladını, ailə başçısını, qohumlarını itirən kim. Elə o vaxtdan Qarabağ əlillərinin, şəhid ailələrinin haqları uğrunda savaşa-savaşa, onların hayına qala-qala bir də ayıldıq ki, bu işlərin içindəyik. Mən Bakıda tikinti şirkətində fəhlə işləyirdim, zülm çəkirdim, ailəmi, valideynlərimi saxlayırdım. Qarnım-başım, ayaqlarım yarıq-yarıq idi. Əməliyyatdan çıxmışdım. O vəziyyətdə Sumqayıta gedib oradan kisə ilə yuyucu toz alıb gətirirdim, gətirib yataqxanada onu qonşulara satırdıq, 3-5 manat qazanıb çörəkpulu edirdik. Elə həmin vaxtlarda Qarabağ qazisi Etimad Əsədovla rastlaşdıq, məni Qazilər Birliyinə dəvət elədi. Elə o vaxtdan proseslərə qarışdıq.

***- Jurnalistikaya gəlişiniz necə oldu?***

- Elə bu təşkilatda əlillərin, şəhid ailələrinin problemlərindən danışa-danışa, yaza-yaza bir də gördüm ki, jurnalistikadayam. Bir ara gördüm ki, jurnalistlər danışdıqlarımı olduğu kimi yazmırlar, sonra özüm yazmağa başladım. Bir də ayıldım ki, jurnalistikanın içindəyəm. Bu sahədə də əlimdən gələni elədim, zəhmətlə çalışdım. Jurnalist fəaliyyətimə 1995-ci ildə "Zaman" qəzetində başladım. Qarabağ Əlillər Cəmiyyətinin mətbu orqanı idi. 1997-ci ildə özümüzün "Əlillər" adlı qəzetimizi təsis elədik. 2001-ci ilə qədər o qəzeti çıxartdıq. Həmin arada mən "Şərq" qəzetində də işlədim. Orada çox gözəl bir jurnalist kollektivinin içində oldum. Sonra 2001-ci ildə cəmiyyətimizi ləğv elədilər, qəzetimizin çapı dayandı. Bunun ardınca "Yeni Müsavat" və "Azadlıq" qəzetlərində köşələr yazdım. Daha sonra "Bizim yol" qəzetində işlədim. O indiki "Bizim yol" deyildi, baş redaktoru Məhəmməd Ərsoy idi. Ondan sonra "Milli yol"u yaratdıq. "Vətəndaş Həmrəyliyi" qəzetində də işləmişəm. 2005-ci ildə "Yeni Müsavat" qəzetinə gəldim, 2007-ci ilə kimi burada işlədim. Mənim jurnalist fəaliyyətimdə təcrübə baxımından "Şərq" qəzeti ilə "Yeni Müsavat" qəzetinin xüsusi yeri var. Yazı vərdişini, peşəkarlığı bu qəzetlərdə mənimsədim. Ancaq jurnalistikada ilk müəllimim Adil Hüseynli olub. "Yeni Müsavat"da Rauf Arifoğlunun çox maraqlı iclasları olurdu, bunlar yadımdadır. Qəzetin əməkdaşları ilə maraqlı projelər həyata keçirirdik. Yazılarım yəqin ki, arxivdə var. Sevinc Telmanqızı, Səbuhi Məmmədli, Kənan Rövşənoğlu ilə projelər eləmişik. Rauf Arifoğlu hər zaman deyirdi ki, sizin bu layihələr jurnalistikamızın tarixinə qızıl hərflərlə yazılır. 2007-ci ildə "Yeni Müsavat"dan çıxdım. Ancaq 4-5 il ölkədə hansısa hadisə baş verəndə elə bilirdim indi Azər Ayxan, ya Rauf Arifoğlu zəng edəcək ki, çantanı götür get hadisə yerinə. O hiss məndə qalmışdı. Ümumilikdə, həyatıma nəzər salanda görürəm ki, ən kritik anlarda doğru qərarlar qəbul eləmişəm. Həm müharibədə, həm ictimai həyatda, həm jurnalistikada bacardığımı elədim.

***- Ailəniz haqqında nə deyə bilərsiniz?***

- 2004-cü ildə ailə həyatı qurmuşam. Ancaq daha öncə heç zaman evlənmək fikrində olmamışam. Fikirləşirdim ki, torpaqlarımız azad olunsun, sonra evlənərəm. Daim proseslərin içində idim, ona görə də evlənib kimisə gözüyaşlı qoya bilməzdim. Sevib-seçdiyim olub, ancaq buna görə ailə qurmamışam. Nə müharibə bitdi, nə qaçqınlıq bitdi. Nəhayət, subaylıqdan bezdim və ailə qurdum.

***- Rey bəy, söhbətimizin sonunda istərdim arzularınızdan danışasınız.***

- Şablon kimi səslənsə də, ən böyük arzum, həyatımın amalı Qarabağın azad olunmasıdır. Daha sonra, istərdim Qarabağ əlillərinə, şəhid ailələrinə münasibət köklü dəyişsin. Onlar məmurların qarşısında boyunlarını bükməsinlər. Qanunvericilikdə güzəştlər artırılsın. Ölkə başçısı, I vitse-prezident nə qədər tapşırıq versə də, məmurların 99 faizinin şəhid ailələrinə, Qarabağ əlillərinə münasibəti yaxşı deyil. Canını vətən uğrunda qurban verənin ailəsi 180 manatın ümidinə buraxılmamalıdır. Təsəvvür edin, 1992-ci ildə oğlan şəhid olub, 3 balası qalıb. O qadın qaçqınçılıqla 3 qız böyüdüb, hamısına ali təhsil verib. Ancaq 3 ali təhsilli balasından birinə iş tapa bilmir. Bunun adı nədir? O ana bu həyatda kipriyi ilə od götürüb axı... Bunlar düzəlməsə, bu ölkənin nicatı yoxdur. Bugünkü gənc o döyüşçüyə, şəhidin ailəsinə münasibəti görüb silaha sarılmalıdır. Pisi görsə getməyəcək.

Bu gün Daxili İşlər Nazirliyi yeganə sistemdir ki, Qarabağ əlillərinə, şəhid ailələrinə yaxşı münasibət göstərir. Bu da nazir Ramil Usubovdan gəlir. Elə bir müraciət yoxdur, onu cavabsız qoysun. Ancaq digər məmurlarla bağlı bunu deyə bilmərəm. Türkiyədə belə bir qanun var ki, şəhidin ailəsinin iki üzvünü təhsilinə uyğun olaraq dövlət məmuru kimi işə götürürlər, bu məcburidir. Bizdə bu güzəştlər yoxdur. Biz bununla bağlı Hadı Rəcəbliyə, Səlim Müslümova müraciət etmişik. Səlim Müslümov nazir təyin olunduqdan sonra şəhid ailələri ilə bağlı köklü dəyişikliklər olub. Ancaq ciddi problemlər hələ də var. Bütövlükdə qanunvericilik, məmurların münasibəti dəyişməlidir. Türkiyədə şəhidin ailəsinə müxtəlif dövlət qurumlarından 500 min türk lirəsi təzminat verilir. Bizdə bu 11 min manatdır, bəzi ailələr 20 ildir bunu ala bilmirlər. Yubiley müsahibəsi olsa da, mən bundan danışmaya bilmərəm. Mənim həyatımda bundan kənarda heç nə yoxdur. Arzum Qarabağın azadlığı, şəhid ailələrinə, qazilərə münasibətin dəyişməsi və normal bir hüquqi dövlətin, cəmiyyətin qurulmasıdır. Gözləntimiz budur. Məgər bu çoxdur?

***- Xeyr, tam haqlı gözləntilərdir. Biz də arzu edirik ki, 55 illik yubileyinizi doğulduğunuz kənddə qeyd edəsiniz, növbəti yubiley müsahibəsi üçün orada görüşək...***

- Təşəkkür edirəm. "Yeni Müsavat"ın mənim üçün doğma olan kollektivinə, rəhbərliyinə də minnətdaram.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017



# Milli velosipedçimiz Kirill müəllim

Zamin HACI
zaminhaci@gmail.com

**Əslində çoxdandır idman haqda xəbərləri, xüsusən də Azərbaycan idmanının guya uğurlarından bəhs edənləri oxumuram. Bilirəm ki, kökü olmayan, uydurma informasiyalardır. Ancaq bu dəfə başlığa çıxarılan cümlə məni əməllicə aldatdı. Başlıq isə belə idi: "Prezident soruşdu ki, burda azərbaycanlılar var?"**

Xəbər iki gün qabaq bitən Azərbaycan velosiped yarışı haqda idi. 3-7 may arası keçirilən "Tur Azərbaycan" kimi dəbdəbəli ad qoyulan yarışın qalibi, sən demə, azərbaycanlı idmançı olmuşdur. Elə başlığa çıxarılan fikir də Azərbaycan Velosiped Federasiyasının vitse-prezidenti Sahib Ələkbərova aid idi. Sən demə, bir dəfə haçansa dövlət başçısı bulvarda milli komandamıza baxış keçirərkən bu sualı veribdir, 16 idmançıdan 12 nəfərin yerlimiz olmasına sevinibdir.

Uzun sözün qısası, turnirin qalibi Kirill Pozdnyakov adlı şəxs idi, mən, açığı, fikirləşdim yəqin Bakı, ya da İsmayıllı, Gədəbəy ruslarından biri olar. Axı İsmayıllı velosiped zavodumuzun şöhrəti də dünyaya yayılmışdır. (Zarafat edirəm, bu haqda az sonra). Ancaq informasiyanı oxuyanda məlum olur "milli" çempionumuz Kirill müəllimin 26 yaşı var, Rusiyada doğulub, boya-başa və ayağını pedala çatdırıbdır, yalnız 2 il qabaq bizim komandaya cəlb edilibdir və sairə.

İndi özünüz deyin, bunun Azərbaycanda velosiped idmanının inkişafına nə dəxli var? Biz heç yeriməyə düz-əməlli səkiləri qalmayan bərbad infrastrukturlu bir paytaxtda yaşayırıq. Əyalət şəhərləri və kəndlərdə də velosiped idmanı üçün şərait yoxdur. Kim istəsə səkini qazıb dükan açır, pilləkən qoyur. Yolda velosiped sürsən böyük riskdir, çünki velosipedçini sıxışdırmağı özünə məqsəd seçmiş saysız axmaq avtomobil sürücüləri var.

Həmin xəbərdə Sahib müəllim İsmayıllı velosiped zavodunun yayda açılacağını da anons etmişdi, düzü, bu lap lətifəyə döndü. Çünki "İsma Bikes" adlı bu zavod hələ keçən il - 2016-cı ilin avqustunda prezidentin səfəri zamanı açılıb, lenti kəsilib. Belə çıxır biz bu ilin yayında zavodu yenidən açacağıq?

Sual verməyin mənası yoxdur, çünki sual verənləri də tutub zindana salıblar. Türmələr siyasi məhbuslarla doludur, elə İsmayıllı hadisələrinə görə şərlənmiş siyasətçi-blogger İlqar Məmmədovu misal göstərək. Yaxud, guya kiməsə su qabı atmış jurnalist Seymur Həzini yada salaq. MTN şefinin külli miqdarda rüşvət alması haqda ifadələr ortalıqda zibil kimidir, ancaq onu tutmurlar, "Əsgər ölümlərinə son!" aksiyasını facebook-da yaydığı üçünsə İlkin Rüstəmzadə 4 ildir zindanda əzab çəkir. Bununla sistem, rejim möhkəmlənirmi? Qətiyyən. Xəbər gətirənləri tutmaq cinayətin inkişafına səbəb olur. Buyurun, hüquq-mühafizə orqanlarının orduda və mülki insanlar arasında Ermənistana işləyən böyük qrupu aşkarlaması xəbərinə diqqət edək. Onların sayı açıqlanmır, ancaq hərbi ekspert Üzeyir Cəfərov 42 nəfər olması ehtimalını yazıb. Bunlar ordunun, cəbhə xəttinin mətbuata, jurnalistlərə tam qapalı olması mühitində baş verib. Yadınıza gəlirsə, 2-3 il qabaq Müdafiə Nazirliyi media rəhbərlərini topladı və cəbhə xəttindən ancaq onların xəbərlərini yaymaq göstərişini verdi. Bu, de-fakto hərbi senzuranın bərpası idi. Əldə edilən "səmərə" budurmu?

Ümumiyyətlə, sivil dövlətlərin hərbi jurnalistika sahəsində təcrübəsi göstərir ki, burada qadağalar, jurnalistlərə təzyiqlər çox ziyanlı, ağır nəticələr verir. Bir sirr jurnalistə məlumdursa, kim qarantiya verə bilər ki, bu sirr düşmənə də məlum deyil? Əgər jurnalist sirri öyrənirsə, deməli, burada cəbhə xəttində "deşik" var. Jurnalistin yazısı o dəlmə-deşiyi qapamağa xidmət edir. Yazmırsansa, ya da yazmağa qoymursansa, düşmən üçün ora uzun müddət açıq qalır.

Eyni zamanda "yemək-içmək, təchizat superdir" deyənlərin üzünə indi baxmaq istərdim. Deməli, ordu yalnız qazan qapağı ilə şəkil çəkdirmək, paxlava ilə fotosessiyadan, manısların konsertlərində əsgərlərlə yallı getməkdən ibarət deyil. Bunun sosial-ictimai, siyasi dayaqları olmalıdır.

Çalışmaq lazımdır kasıbların uşaqları da cəbhə xəttinə gedib həlak olsun. Yoxsa haçana qədər nazirlərin, məmurların övladları döyüşəcək, vətən uğrunda öləcəkdir? Belə olanda, bu ayrıseçkilik şəraitində ordu-xalq vəhdətinə nail olmaq çətindir.

# Moskva elçimizin səfir kimi son akkordları

**Xəbər verildiyi kimi, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu BMT-nin Elm, Təhsil və Mədəniyyət Təşkilatının (YUNESKO) baş direktoru vəzifəsinə namizəd olub.**




# Polad Bülbüloğlu səfir postundan geri çağırılır - təfsilat

## YUNESKO-ya rəhbərlik üçün namizəd olan Rusiyadakı səfir diplomat kimi fəaliyyətini başa vurmaq ərəfəsindədir; Gələn il həm Azərbaycanda, həm Rusiyada mühüm siyasi hadisə olacaq; iqtidar Moskvada səfir postuna daha çevik diplomat təyinatı barədə qərarlıdır

Onun namizədliyini Azərbaycan rəsmən YUNESKO-nun İcraiyyə Şurasına təqdim edib. P.Bülbüloğlu artıq Parisdə növbəti dörd il üçün təşkilatın məsuliyyət sahələrində beynəlxalq ictimaiyyətin əsas məqsədləri barədə öz proqramının bəzi məqamlarını açıqlayıb.

Qeyd edək ki, 2009-cu ildə YUNESKO-nun baş direktoru vəzifəsinə seçilən, 2013-ci ildə ikinci dəfə görəvinin başında qalan bolqarıstanlı diplomat İrina Bokovanın səlahiyyət müddəti payızda başa çatır. YUNESKO-nun qaydalarına görə, bir şəxs baş direktor vəzifəsinə iki dəfədən artıq seçilə bilməz.

Təcrübəli diplomat olan İrina Boyko YUNESKO-nun onuncu rəhbəridir. Payızda keçiriləcək seçkilərdə təşkilatın 11-ci rəhbərinin adı bilinməlidir.

Məlumat üçün deyək ki, təşkilat 16 noyabr 1945-ci ildə yaradılıb, mərkəzi qərargahı Fransa paytaxtı Parisdə yerləşir. Təşkilatın tərkibinə dünyanın müxtəlif bölgələrindən 67 büro və alt bölmələr daxildir. Hazırda təşkilatın 191 üzvü var. Siyasi Şuranın 58 üzvü var. Oktyabrda 58 üzv toplaşaraq namizədlər irəli sürəcək, gizli səsvermə olacaq və ən çox etimad qazanmış namizəd təşkilatı baş konfransa gedəcək. Baş konfransda isə YUNESKO-nun 11-ci baş direktorunu seçəcək.

**P.Bülbüloğlunun YUNESKO-nun baş direktoru vəzifəsinə namizəd olması ölkə mediasında və sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilib. P.Bülbüloğlu ingilis dilini yaxşı bilməməsi barədə iradlara münasibət bildirərək deyib ki, ingilis dilində bir çox mədəniyyət nazirlərindən daha yaxşı danışır:** "Dil məsələsi mübahisəlidir. YUNESKO-da da 6 əsas dil keçərlidir. Bunlardan biri rus dilidir. Mən bu dili mükəmməl bilirəm. Orada tələb oldu ki, ingilis və ya rus dili olsun. Bütün hallarda mən suallara cavab verdim. Mən ingilis dilini ingilislər kimi bilmirəm. Qarşıda 5 ay var, mən hələ hazırlaşacağam".

**P.Bülbüloğlu vurğulayıb ki, əsas məsələ namizədin hansı ideyalar irəli sürməsidir:** "Bu gün bu quruma onun problemlərini həll edə biləcək qətiyyətli, yeni ideyalar və yanaşmalar, islahatlar təklif edə bilən adam lazımdır. Mənim krizis menecment sahəsində çox gözəl təcrübəm var. Mən Sovet İttifaqı dağılan dövrdə Azərbaycanın mədəniyyət naziri olmuşam".

P.Bülbüloğlunun namizədliyini irəli sürməsi və seçiləcəyi təqdirdə nüfuzlu bir təşkilata rəhbərlik etməsi şübhəsiz ki, Azərbaycan adına çox uğurlu bir iş olar. Amma indilikdə onun namizədliyini irəli sürməsi barədə çox sensasion hesab oluna bilən iddialar var.

İddia olunur ki, 2006-cı ildən Azərbaycanın Rusiyadakı səfiri vəzifəsində çalışan P.Bülbüloğlu ilin sonunadək vəzifəsindən geri çağırılacaq. 11 ildir ki, Azərbaycan üçün ən önəmli bir ölkədə səfir işləyən P.Bülbüloğlu özü də vəzifədən getmək niyyətindədir. Amma əsas məqam budur ki, iqtidar onun diplomat fəaliyyətindən çoxdan razı deyil. Bildirilir ki, P.Bülbüloğlunun xüsusilə Rusiyadakı diaspora ilə bağlı tutduğu mövqe Bakını ciddi narazı salır. Onun 11 illik fəaliyyəti dövründə Azərbaycanın bu ölkədəki diaspor təşkilatları parçalanaraq zəifləyib. Sirr deyil ki, Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının böyük bir qismi amorf təşkilatlara çevrilib. Diaspor üzərində liderlik iddiaları diasporun böyük hissəsinin ondan üz döndərməsi ilə nəticələnib. Rusiyadakı diaspora bu illər ərzində əsasən Heydər Əliyev Fondunun zəhməti sayəsində ayaqda qala bilib.

İddialara görə, P.Bülbüloğlu xüsusilə diaspora təşkilatları arasında koordinasiyanı lazımi səviyyədə edə bilməyib, hətta intriqalarda tərəf kimi çıxış edib. İqtidarın P.Bülbüloğlundan əsas narazılığı isə onun Azərbaycanın sabiq vitse-primyeri Abbas Abbasovun vaxtilə rəhbərlik etdiyi "Azer-Ros"da baş verən parçalanmada sabiq məmurun tərəfini tutması olub. Həmin ərəfədə A.Abbasova qarşı cəbhədə yer alan Söyün Sadıqov səfiri öz həmyerlilərinin taleyinə biganəlikdə, rəsmi Bakıya qarşı yaradılmış "Milyarder ittifaqı" ilə bir gəmidə yer almaqda günahlandırmışdı.

Son aylar isə Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatının ləğvi üçün Rusiya Ədliyyə Nazirliyinin Ali Məhkəməyə müraciəti P.Bülbüloğlunu yenidən tənqid hədəfinə çevirib. Aprelin 26-na təyin edilən məhkəmə mayın 15-dək təxirə salınsa da, 50-dən çox regional təşkilatı olan ÜAK-ın taleyi bir qəranın ümidinə qalıb. ÜAK-ın qeydiyyatı ilə bağlı yaranmış vəziyyəti Azərbaycan mediasına şərh edən rusiyalı siyasi texnoloq Denis Kokordinovun fikirləri də maraqlıdır. O, təşkilatın qeydiyyatın ləğv edilməsi kimi bir təhlükə ilə üzləşməsində Rusiyadakı səfirimizin məsuliyyəti olduğunu demişdi. Politexnoloq iddia edib ki, P.Bülbüloğlu təşkilatın fəaliyyətinə bəzi hallarda qısqanc münasibət göstərib, təşkilatın ictimai arenada nüfuzlu nümayəndələrinin ÜAK-dan uzaqlaşdırılmasına nail olub. Maraqlıdır ki, bu qədər səs-küy doğuran məhkəmə barədə səfir hələ də danışmayıb ki, bu da müəmmaları artırır.

Gələn il həm Rusiyada, həm də Azərbaycanda prezident seçkiləri ilidir. Azərbaycanla Rusiya arasında əməkdaşlıq yüksək səviyyədə olsa da, bu münasibətlər etiraf etmək lazımdır ki, həm də ziqzaqvaridir. Zamanla Rusiya ilə rəsmi Bakı arasında gərginliklər müşahidə edilir. Bu cür hallarda isə P.Bülbüloğlu həmişə "kölgədə qalmağa" çalışır ki, bu da rəsmi Bakını razı sala bilməz. Bildirilir ki, iqtidar Rusiyadakı səfir postuna daha çevik diplomat təyinatı barədə qərarlıdır. Bu səbəbdən də P.Bülbüloğlu iqtidarın xeyir-duası ilə YUNESKO-ya rəhbərlik üçün yarışa qatılıb ki, bu işdə ona Azərbaycan adına ancaq uğurlar arzulamaq lazımdır.

❑ "YM"

## Okeanın o tayından qərb qonşumuza ilginc dəstək




**Rusiyanın xarici işlər naziri Sergey Lavrov dünən Moskvada ilin yekunlarına həsr olunmuş geniş mətbuat konfransı keçirib. Erməni əsilli nazir Dağlıq Qarabağ mövzusunda da danışıb və bir sıra maraqlı açıqlamalar verib, yeni detallara toxunub. Eyni zamanda Qarabağa dair böyük anlaşmanın təxmini şərtlərini bəyan edib.**

# ABŞ-dan separatçı bölgələrlə bağlı görünməmiş qərar - Bakı üçün də şans

### Senatın 2017 üçün federal büdcə ilə bağlı qəbul etdiyi qanunda ilk dəfə olaraq Gürcüstanın ərazi bütövlüyünə dəstək maddələri yer alıb, işğala görə Rusiyaya yeni sanksiyalar nəzərdə tutulur; bəs Ermənistan? Trampın imzaladığı sənədin analojisi Azərbaycanla bağlı da qəbul edilə bilər, əgər...

Dünən Gürcüstanın baş naziri Georgi Kvirikaşvilinin ABŞ-a 3 günlük səfəri başlayıb. Gürcü mənbələrinin verdiyi məlumata görə, baş nazir Ağ Evdə vitse-prezident Mayk Pens və dövlət katibi Reks Tillersonla görüşəcək. Onun həmçinin ABŞ Senatında müxtəlif komitələrin sədrləri ilə təmasları planlaşdırılır.

Gürcüstan hökumət başçısını səfərdə xarici işlər naziri Mixail Canelidze, onun müavini David Zalkaliani və baş nazirin xarici əlaqələr üzrə müşaviri Tedo Caparidze müşayiət edirlər. Lakin ən mühüm detal - baş nazirin səfərinin ABŞ prezidenti Donald Trampın ölkənin 2017-ci il üçün yeni federal büdcəsini təsdiqləməsindən iki gün sonraya təsadüf eləməsidir.

Məsələ ondadır k, büdcə mətnində ilk dəfə Gürcüstanın ərazi bütövlüyünün müdafiəsi ilə bağlı maddələr yer alıb. Həmin maddələrə əsasən, Gürcüstanın işğal edilmiş Abxaziya və Cənubi Osetiya regionlarının müstəqilliyini tanıyan istənilən ölkəyə hər hansı kömək birbaşa və qəti şəkildə qadağan edilir. Söhbət təbii ki, ən əvvəl Rusiyadan gedir. O Rusiya ki, ABŞ-ın ən yüksək rəsmiləri belə, onu vaxtaşırı və açıq şəkildə təcavüzkar adlandırırlar.

Təsadüfi deyil ki, Gürcüstanın baş naziri bu qərarı öz ölkəsi üçün “çox mühüm və misli görünməmiş” adlandırıb. “Hamını belə bir misli görünməmiş sənəd münasibətilə təbrik edirəm - harda ki, qanunverici akt şəklində ilk dəfə olaraq, Gürcüstan ərazisinin işğalı öz əksini tapıb. Bu, strateji tərəfdaşlarımız tərəfindən Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə, habelə ölkəmizdə gedən demokratikləşmə prosesinə və iqtisadi inkişafa verilən dəstəyin daha bir təsdiqidir”, - deyə Kvirikaşvili vurğulayıb.

***

Qeyd edək ki, büdcə ayırmaları barədə qanun mayın 6-da qüvvəyə minib. Sənəddə Gürcüstanla bağlı maddə “Gürcü əraziləri - Abxaziya və Tsxinvali/ üzdəniraq Cənubi Osetiya regionlarının işğalı” adlanır. Qanuna görə, ABŞ-ın dövlət idarələrinə bu bölgələrin Rusiya tərəfindən işğalına kömək olan addımlar atmaq qadağan olunur. Qanun Birləşmiş Ştatların Maliyyə Nazirliyi üzərinə bu məsələ ilə bağlı müvafiq beynəlxalq təlimatlar hazırlamaq öhdəliyi qoyur - ki, Gürcüstanın ərazi bütövlüyünü pozan hər hansı proqramın reallaşması mümkünlüyü *(kreditlər, borclar, zəmanətlər)* istisna edilsin. Bundan əlavə, təsdiqlənmiş büdcə layihəsində ABŞ dövlət katibinə vəzifə olaraq tapşırılır ki, sənədin qüvvəyə mindiyi andan 90 gün ərzində Abxaziya və Cənubi Osetiyanın işğalı ilə bağlı Rusiyanın hərəkətləri haqda məlumat versin.

***

Bu sübhəsiz ki, dünyanın 1 nömrəli dövlətinin Rusiya işğalı qarşısında qərb qonşumuza dövlət səviyyəsində verdiyi yeni, bənzərsiz və olduqca mühüm dəstəkdir. Yada salaq ki, bir neçə il öncə ABŞ Senatının qəbul etdiyi başqa qərarla Gürcüstan Ukrayna, Moldova və bəzi digər Şərqi Avropa ölkələri ilə birgə ABŞ-ın NATO-dan kənar müttəfiqi elan olunub. Bu da növbəti sanballı dəstək.

Sual ortaya çıxır: nədən ABŞ kimi superdövlət işğalçı Ermənistana qarşı da analoji mövqe sergiləməsin? Axı Azərbaycanın da nə az, nə çox - 20% ərazisi on illərdir erməni silahlı qüvvələrinin tapdağı altındadır, bir milyondan çox insan qaçqın-köçkün həyatı yaşayır, işğal altındakı ərazilərdə etnik təmizləmə aparılıb, tarixi-mədəni abidələrimiz viran qoyulub, vandalizm aktları törədilib. “İkili standart” siyasətimi?

Sözsüz ki, məsələdə xristian amili *(gizli xristian təəssübkeşliyi)* və Amerikadakı güclü erməni lobbisi az rol oynamır. Yəqin ən əvvəl bunun nəticəsidir ki, Abxaziya, Cənubi Osetiya, Krım separatçılarının Amerikaya, Qərbə yolu çoxdan bağlı olduğu halda, ABŞ-da sərbəst şəkildə Dağlıq Qarabağdakı qondarma rejimin “nümayəndəliyi” fəaliyyət göstərir, “Kreml tulası” Bako Saakyan kefi istədiyi vaxt Vaşinqtona gəlir, hətta Senatda görüşlər keçirir, üstəlik görüş keçirdiyi məkanda saxta “DQR”in bayraq adlandırılan əskisini asır.

***

Əlbəttə ki, “ikili standart” yanaşma var. Amma insafən bir az da günahı özümüzdə axtarsaq, yaxşı olar. İş ondadır ki, qonşu Gürcüstan Vaşinqtonun belə yüksək səviyyəli və birmənalı dəstəyinə müstəsna olaraq Avrointeqrasiya xəttinə sadiq qaldığı, qardaş Türkiyənin də daxil olduğu Qərb (NATO) təhlükəsizlik sistemində yer aldığı, həmçinin ölkəni demokratik inkişaf yoluna çıxardığı üçün layiq görülür.

Deyilə bilər ki, bəs Rusiya faktoru? Yəni qorxu var ki, Azərbaycan da Gürcüstan yolu getsə, Rusiyanın qəzəbinə gələr. Zatən, biz məgər Rusiyanın qəzəbinə gəlməmişik ki? Rusiya torpaqlarımızın şərikli işğalçısı deyil ki? Ən önəmlisi, son 29 ildə Moskva əlində misilsiz imkanlar ola-ola Qarabağ konfliktinin həllinə zərrəcə kömək etməyibsə, onu daha nə qədər gözləməliyik?

Bir də ki, “İslanmışın yağışdan nə qorxusu?” Rusiya erməninin əli ilə Azərbaycana ən böyük pisliyini edib və bu pisliyə görə nə peşmandır, nə də qolunu çirməyib həmin pisliyin nəticələrini aradan qaldırmağa hazırlaşır. Əvəzində isə Azərbaycan “Əli aşından da olur, Vəli aşınadan da”. Nə vaxtadək?

Nəhayət, demirikmi ki, qardaş Türkiyə harda, Azərbaycan da orda? Deyirik. Həm də tez-tez, ucadan deyirik. O zaman nəyi gözləyirik? Onu da unutmayaq ki, Rusiyanın hansısa separatçı qurumun müstəqilliyini birtərəfli qaydada tanıması hələ heç nə demək deyil - necə ki, Abxaziya və Cənubi Osetiya dünya birliyinin üzvü ola bilmədi. Əsas - Qərbin, ABŞ-ın tanımasıdır. Deməli, Qarabağ məsələsində Qərbin, ABŞ-ın dəstəyinə xüsusi önəm verməliyik. Bu, istək məsələsi deyil, zərurətdir.

Bir sözlə, Azərbaycan üçün də şans pəncərəsi fürsət qapısı açıqdır. Hələ ki...

❑ **Siyasət şöbəsi**

## Həmasın yumşalması Yaxın Şərqə sülh gətirəcəkmi...

### Bu regionda sülh ilğım kimidir; uzaqdan görünsə də, yaxınlaşdıqca itir



**Ötən həftənin ən səs-küylü hadisələrindən biri Fələstinin Həmas hərəkatının İsrailə qarşı nisbətən yumşaq bir siyasi bəyannaməsini elan etməsi oldu. Mayın 1-də İslami Müqavimət hərəkatı Həmas yeni siyasi bəyannaməsini Qətərin paytaxtı Dohada elan etdi.**

42 maddədən ibarət yeni siyasi sənəddə 1988-ci il təşkilatın qurucu sənədində yer alan bir sıra ifadələr, o cümlədən İsrailin yer üzündən silinməsinə çağırış ifadələri çıxarılıb. Ən mühümü isə Həmasın yeni sənədində təşkilatın 1967-ci il sərhədləri daxilində Fələstin dövlətinin qurulmasını dəstəkləyib.

Ən çox müzakirələrə səbəb olan maddə Həmasın 1967-ci il sərhədləri daxilində Fələstin dövlətinin qurulmasını dəstəkləməsidir. Məsələ ondadır ki, 30 il əvvəl birinci Fələstin “intifadası” zamanı qurulan Həmas hərəkatı Fələstin torpaqlarında yalnız Fələstin dövlətinin qurumasına çağırırdı.

Bu siyasi bəyanat Yaxın Şərq və ümumiyyətlə, müsəlman aləmində kəskin fikir ayrılığına səbəb olub. Həmasın körfəz ərəb ölkələri tərəfindən ələ alındığını, əsas məqsədin İranın Fələstində təsirini zəiflətmək, İsraillə ərəb dünyası arasında yaxınlaşmanın bir işarəsi olduğu haqda iddialar var. Çünki faktiki olaraq son bir neçə ildə körfəz ərəb ölkələri ilə İran arasında münasibətlər müharibə vəziyyətinə çatıb. Eyni zamanda paralel olaraq yarı aşkar və yarı gizli şəkildə bir İsrail-ərəb yaxınlaşması da müşahidə olunur. Son illərdə ərəb ölkələrindən İsrailə səfər edən rəsmi heyətlərin sayı artmaqdadır. İranın Yaxın Şərqdə fəallaşması İsrail və ərəb dünyasının ortaq narahatlığı olduğu üçün bu yaxınlaşma da məntiqi görünür.

Ancaq aydın məsələdir ki, İsrail hakimiyyəti bu bəyanata inanmır. Baş nazir Netanyahu Həmasın bəyannaməsini tənqid edib. İsrailin Azərbaycandakı səfiri Dan Stav da Həmasın bəyanatının yalnız təbliğat olduğunu deyib. Sitat: **“Onlar İsrailə qarşı ekstremist mövqelərini gizlətməyə çalışırlar. Onlar bizi tanımır və müasir İsrailin bütün ərazisinin onların müqəddəs torpaqları olduğunu deyirlər”.**

Həmasın İsrailə qarşı sərt ritorikanı yumşaltması ərəblərin Həmasa dəstəyinin rəsmiləşməsinə, eyni zamanda silahlı münaqişənin dayandırılıb danışıqlar prosesinin başlamasına doğru bir addım da adlandırmaq olar. Amma İsrail siyasi rəhbərliyinin bir bəyanatla dəyişəcəyini düşünməsi sadəlövhlük olardı. Lakin istənilən halda yumşalma istiqamətində bir cəhd ortadadır.

Maraqlıdır ki, bu bəyannamənin yayılmasından az sonra onun müəllifi, uzun illər Həmas siyasi qanadının rəhbəri Xalid Məşal vəzifəsindən getdi, onu seçkilər yolu ilə keçmiş baş nazir İsmayıl Haniyə əvəz edir. Bir mənada bu bəyanatın Məşal tərəfindən elan olunması və qısa müddət sonra postu Haniyəyə təhvil verməsi düşünülmüş plana bənzəyir; Həmasın müqavimət imicini qoruyub saxlamaq və tənqidləri yayındırmaq üçün bu addımı ata bilərlər. İndi artıq təşkilatın başına Haniyə gətirilib və necə deyərlər, bununla da əsas “günah keçisi” Məşal olaraq qalır.

Amma ərəblərin başlatdığı yumşalma və sülh prosesinin Yaxın Şərqə sabitlik gətirəcəyi inandırıcı deyil. Məsələ ondadır ki, ən yaxşı halda bu cür mövqe dəyişikliyi Həmasın imicini zədələyəcək, daha əvvəl Fəth təşkilatında olduğu kimi onun silahlı gücü sıradan çıxacaq. Çünki daha əvvəl Fələstində silahlı müqavimətə Fəth və onun əfsanəvi lideri Yasir Ərafat rəhbərlik edib, ancaq Ərafat Qərbin və ərəb liderlərinin təzyiqi ilə İsraillə barışıq danışıqlarına qoşulduqdan sonra Fələstində narazı elektorat ona deyil, Fələstinin azadlığı üçün silahlı mübarizəyə çağıran Həmasa dəstək verdi. Nəticədə Ərafatın ölümündən iki il sonra Fələstində keçirilən seçkilərdə Həmas 61 faiz səs alaraq parlamentdə çoxluğu ələ keçirdi.

Bu gedişat davam edərsə, Fəthin taleyini Həmas da yaşayacaq və paralel olaraq yeni silahlı qruplar meydana çıxacaq. Digər tərəfdən, hətta İsraillə Həmas arasında barışıq olsa belə, indi Fələstin əraziləri o qədər mübahisəlidir ki, kimin konkret hansı bölgəyə nəzarət edəcəyi, üstəlik, Qüds şəhərinin taleyi məsələləri hələ də açıq qalan, ortaq bir yanaşmanın olmadığı mövzulardır. Bu mənada Həmas kimi təşkilatın İsraillə barışması belə, bölgəyə sülh gətirə bilməyəcək.

Əksinə, Suriyada savaşın daha da qarışıq bir vəziyyət alması regionu daha böyük müharibə ilə təhdid edir. Hansı ki, nəticələri bütün bölgə üçün ağır olacaq. Bu mənada indiki vəziyyətdə Yaxın Şərqdə sülh təşəbbüsü səhra ilğımı kimidir. Uzaqdan görünsə də yetişmək mümkün deyil.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017

**Fransada prezident seçkilərinin ikinci turunda "İrəli" hərəkatının lideri, sabiq maliyyə naziri, 39 yaşlı Emmanuel Makron 65 faiz səslə qalib gəlib. Fransa tarixinin ən gənc prezidenti kimi tarixə düşən Emmanuel Makron prezident seçildikdən dərhal sonra AFP-yə açıqlamasında "Bu zəfər Fransa üçün ümidin yeni səhifəsidir. Tariximizdə ümid və güvən dolu yeni bir səhifə açdıq" deyib. Canlı yayında çıxışında yeni prezident Fransanın gələcəyi üçün əlindən gələni edəcəyini söz verib: "Separatçılığa yol verilməyəcək. Fransanı, Avropanı, qitəmizi, ortaq dəyərlərimizi qoruyacağam. Buradan ifadə etmək istəyirəm ki, Fransa bütün dünyaya dost olacaqdır. Əziz fransalılar, ölkəmiz iqlim dəyişikliyinə, terrora qarşı torpaqlarımızda və xaricdə mübarizə aparacaq. Xanımlar və bəylər, uzun tariximizdə yeni bir səhifə açıldı. Bu, ümidin, mübarizənin səhifəsi olsun. Demokratiya uğrunda mübarizə aparacağam. Bundan sonra 5 il mən mübarizə aparacağam. Qorxuları yox edəcəm. Bütün gücümlə savaşacam".**

# Makronun Fransa prezidenti seçilməsinin Azərbaycana da dəxli var imiş

## **Şahin Cəfərli:** "Fransada baş verən istənilən böyük hadisənin təsirləri bizə də gəlib çatır; Makronun qələbəsi həm də Avropa Birliyinin qələbəsidir"



"Emmanuel Makronun Fransa prezidenti seçilməsi Avropa Birliyinə necə təsir edəcək" sualı isə hazırda ən aktual suallardan biri olaraq qalır.

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, Emmanuel Makronun qələbəsi həm də Avropa Birliyinin qələbəsidir: "Miqrant böhranı, "Brexit" hadisəsi, ölkələrin daxilində radikal, populist, avroskeptik və antiqlobalist qüvvələrin güclənməsi Avropa Birliyini ciddi sınaq qarşısında qoymuşdu. Avropa Birliyi həm təşkilat, həm də ideya olaraq böhran mərhələsində idi. Lakin əvvəlcə Hollandiyada irqçi populistlərin məğlubiyyəti Avropa Birliyi hakim dairələrinə rahat nəfəs aldırdı. Fransadakı seçkilərdə Avropa Birliyi ideyalarının və liberal dünya düzəninin tərəfdarı olan namizədin zəfəri isə artıq göstərir ki, Böyük Britaniyadakı referendum və ABŞ-dakı prezident seçkiləri ilə başlayan, Avropa Birliyinin bütövlüyünü təhdid edən dalğa artıq dayandı - ən azı hazırkı mərhələdə. Makronun qələbəsi Avropa Birliyi liderlərinə qurumun gələcəyi ilə bağlı yeni planlar qurmaq, reorqanizasiya işləri həyata keçirmək üçün qiymətli zaman qazandırdı".

**Bununla belə, ekspertin fikrincə, hələ təhlükənin sovuşduğunu demək olmaz. Problemlər davam edir. Miqrant problemi, terrorizm təhlükəsi, geniş xalq kütlələrinin antielita, antisistem əhval-ruhiyyəsi qalır:** "Hazırda Fransa və Almaniya başda olmaqla, Avropa Birliyinin lider dövlətlərinin əsas vəzifəsi daxildə zəruri dəyişiklikləri və islahatları həyata keçirərək bu narazılıq dalğasının yüksəlməsinin qarşısını almaqdan ibarətdir. Əgər onlar buna nail ola bilməsələr, Le Pen, Vilders tipli liderlər və onların ifadə etdiyi ideyalar populyarlaşmağa davam edəcək".

**Onu da qeyd edək ki, Azərbaycanda da Fransadakı prezident seçkiləri həssaslıqla izləndi. Hətta o dərəcədə diqqətlə izləyirlər, Makronun seçilməsinə sosial şəbəkələrdə insanlar elə yanaşırlar sanki seçki bizim ölkəmizə aiddir. Bəs Makronun seçilməsinin Azərbaycana da dəxli varmı?**

**Şahin Cəfərli qeyd etdi ki, Fransa seçkilərinin Azərbaycan cəmiyyətində həssaslıqla izlənməsi yaxşı haldır və müsbət qiymətləndirilməlidir:** "Sosial şəbəkələrdə insanların önəmli qismi-əsasən təhsilli və intellektual təbəqə-beynəlxalq mövzularla ardıcıl maraqlanır. Bunu müsbət qiymətləndirmək lazımdır, çünki Azərbaycan dünyanın bir hissəsidir və istər bölgəmizdə, istərsə də qlobal miqyasda baş verən hadisələrin bizə də birbaşa və ya dolayı təsirləri var. Konkret Fransaya gəldikdə, bu ölkə bizim 1 saylı milli məsələmiz olan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq mexanizmə rəhbərlik edən 3 dövlətdən biridir və onun mövqeyi önəmlidir. Digər tərəfdən, Fransa Almaniya ilə birlikdə Avropa Birliyinin 2 lokomotivindən biridir, Avropa Birliyi isə Azərbaycanın ən mühüm iqtisadi-siyasi tərəfdaşıdır. Yeni Fransada baş verən istənilən böyük hadisənin təsirləri bizə də gəlib çatır. Eyni zamanda Fransa dünyaya bir sıra mütərəqqi ideyalar, məsələn, respublika, sekulyarizm, laisizm və s. bəxş etmiş, insan hüquq və azadlıqlarının təmin olunması, hakimiyyət bölgüsü ideyalarının bəşəriyyətə yayılmasında mühüm tarixi rola malik bir ölkə və mədəniyyət mərkəzidir. Belə bir ölkənin bütün dünyada, o cümlədən Azərbaycanda diqqət mərkəzində olması normal haldır. Qlobal proseslərin belə diqqətlə izlənməsinin səbəblərindən biri də ölkəmizdə siyasi süstlüyün hökm sürməsi, siyasi rəqabət və siyasi mübarizə mühitinin olmaması ilə əlaqədardır".

❑ **Etibar SEYİDAĞA**

# Faşizm üzərində qələbə günü - sağ qalan 763 veterana 1000 manat verilib

## **ƏƏSMN:** "Azərbaycanda İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləği MDB-də ən yüksəkdir"

**Bu gün-9 may İkinci Dünya müharibəsinin başa çatdığı-faşizm üzərində qələbə günüdür. Almaniya ordusunun Polşaya hücuma başladığı 1 sentyabr 1939-cu il müharibənin başlanma tarixi sayılır. Azərbaycanın o dövrdə daxil olduğu SSRİ isə İkinci Dünya müharibəsinə 1941-ci il 22 iyunda qoşulub. Hitler Almaniyasının SSRİ-yə hücumundan sonra başlanan müharibəni sovet xalqları böyük vətən müharibəsi adlandırırdılar.**

İkinci Dünya müharibəsi bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olub. İkinci Dünya müharibəsində həlak olan 57 milyon adamdan 27 milyonu sovet vətəndaşları idi. Onlardan da 300 mindən çoxu azərbaycanlılar olmuşdu.

Azərbaycan xalqı bu müharibədə böyük əzmkarlıq göstərib. Müharibənin SSRİ-nin xeyrinə başa çatmasında Bakı neftinin müstəsna rolu olduğu təkzibedilməz faktdır.

Faşizm üzərində qələbə digər bir çox xalqlar kimi Azərbaycan xalqının da qanı və külli miqdarda maddi sərvətlərinin itirilməsi, böyük məhrumiyyətlər hesabına əldə edilib.

Faşizm üzərində qələbənin ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin müharibənin iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə hər il sərəncam imzalanır. Onlar üçün nəzərdə tutulan birdəfəlik yardımların məbləği də vaxtaşırı olaraq artırılır. Bu sahədə növbəti tədbir kimi, ötən ildən etibarən bu maddi yardımların məbləği 25 faiz artırılmaqla, müvafiq olaraq 800 manatdan 1000 manata və 400 manatdan 500 manata çatdırılıb.



Azərbaycanda İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləği MDB-yə üzv ölkələrdə həmin insanlara ödənilən müvafiq yardım məbləğlərindən ən yüksəyidir.

Qeyd etdiyimiz ənənəvi sərəncamı prezident bu il də imzalayıb. Prezident İlham Əliyevin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 24 aprel 2017-ci il tarixli Sərəncamına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən həmin şəxslərin birdəfəlik maddi yardımlarla təmin olunması üçün maliyyələşdirmə işləri başa çatdırılıb və maddi yardımlar artıq sahiblərinə çatıb.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmisi Elman Babayev** bildirib ki, sərəncam ümumilikdə 13 312 nəfər şəxsə şamil olunub. Onlardan 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçıları olan 763 nəfərin hər birinə 1000 manat məbləğində birdəfəlik maddi yardım ödənilib. Qalan 12 549 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarıdır. Həmin vətəndaşların hər birinə isə 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Sərəncamda nəzərdə tutulan şəxslərə birdəfəlik maddi yardımlar avtomatlaşdırılmış qaydada onların pensiya üzrə plastik kart hesablarına köçürülüb.

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017



# Azərbaycana qarşı növbəti təxribatlar - düşmən Bakını savaşa çəkir

Serj Sərkisyan Şuşanın işğal günündəki tədbirlərə qatılmaq üçün Qarabağa gəlməklə müharibə tərəfdarı olduğunu nümayiş etdirdi; **politoloq:** "Minsk Qrupu nə Sərkiysanın qanunsuz səfərlərinə, nə qeyri-qanuni köçə, nə də işğal altındakı ərazilərdə qanunsuz hərbi təlimlərinə etiraz edir..."

**Ermənistan bir daha özünün işğalçılıq siyasətinə sadiqliyini nümayiş etdirdi. Qarabağda baş verən cinayətlərdə aparıcı rol oynamış və oynamaqda davam edən Serj Sərkisyanın növbəti dəfə qeyri-qanuni şəkildə işğal altındakı Azərbaycan ərazilərinə gəlməsi bunu bir daha təsdiqlədi.**

Mayın 7-də vertolyotla Xankəndi şəhərinə gələn Ermənistan prezidenti mayın 8-9-da keçiriləcək "bayram" tədbirlərində iştirak edəcəyini bildirib. Qarabağdakı cinayətkar silahlı qruplaşmaların başçısı Bako Saakyanla birlikdə torpaqlarımızda dolaşan S.Sərkisyan əslində bununla aparılan danışıqlara tüpürdüyünü bir daha nümayiş etdirib. Özü də S.Sərkisyan ya bilərəkdən, ya da unutqanlıq edərək danışıqların növbəti raundunun Moskvanın moderatorluğu ilə aparıldığına məhəl qoymayıb. Aprelin sonlarında Rusiya paytaxtında keçirilən XİN başçılarının üçtərəfli təmasında prezidentlərin növbəti görüşünə hazırlıq məsələləri də müzakirə mövzusu olmuşdu, həmçinin Sankt-Peterburq və Vyana görüşlərində əldə olunan razılaşmalara əməl edilməsi məqsədəuyğun sayılmışdı. Amma Sərkisyan bu addımı ilə məqsədli şəkildə təxribatçı addım atıb və müharibənin hər an başlaması üçün münbit şərait yaradılması istiqamətində hərəkət edib. Lakin çox qəribədir ki, erməni prezidentin Azərbaycan üçün olduqca həssas məsələ olan Şuşanın zəbt olunması günündə bayram tədbirləri keçirməsi və orada iştirakının növbəti dağıdıcı müharibəyə səbəb olacağı beynəlxalq aləmin, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin "diqqətindən yayınıb".

Azərbaycan düşmənə zərbələr vuranda əl-ayağa düşən bu qurumlar qonşu ölkənin prezidentinin ərazilərimizə gəlməsinə artıq adi yanaşırlar və tam görməzdən gəlirlər. Bir sıra müşahidəçilər hesab edir ki, Azərbaycan S.Sərkisyanın bu həyasız davranışlarını cavabsız qoymamalı, ondan dərhal Qarabağı tərk etməsini, bununla bağlı mövqeyini beynəlxalq təşkilatlara çatdırmalı, düşmənin qarşısında tələblərinin yerinə yetirilməsi üçün konkret vaxt qoymalıdır. Əgər bu müddət ərzində erməni işğalçılarının həyasız davranışları dayandırılmasa, o halda torpaqların azad olunması istiqamətində döyüş əmri verilməlidir. S.Sərkisyan 25 ildir işğalda olan Şuşada bayram tədbirləri təşkil etməklə bu əraziləri geri qaytarmayacaqlarını nümayiş etdirdi. Bu isə savaşın qaçılmaz olduğuna şübhə yeri qoymur.

Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov bildirdi ki, Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının 25 illiyi ərəfəsində Ermənistanın cinayətkar prezidenti Serj Sərkisyan növbəti dəfə açıq təxribata əl atıb: "O, qondarma qurumun təşkil etdiyi "hərbi parad"da iştirak etmək üçün Xankəndinə, oradan isə Şuşaya gəlib. Əlbəttə ki, bütün baş verənlər ən birincisi beynəlxalq hüququn hazırda tam iflic bir durumda olmasının nəticəsidir. Əgər belə olmasaydı, yəqin ki, Sərkisyan kimi bir cani yəqin ki, çoxdan azadlıqda olmazdı, ya gəbərdilmişdi, ya da məhbəs həyatı yaşayırdı. İnanıram ki, bu, gec-tez baş verəcək. Çünki hər iki tərəfdən məhz bu avantürist və separatçı daşnakın özü və yaxın ətrafının günahı ucbatından minlərlə insan həyatını itirib, yüz minlərlə insan isə məskunlaşdığı isti ocağından didərgin düşüb. Bu yaramazın özü və sovet deyil, məhz rus ordusunun 366-cı motoatıcı alayının satılmış, xəyanətkar zabit və əsgərlərinin köməyi ilə may ayının 7-dən 8-nə keçən gecə Şuşa şəhəri işğal olundu. İndiyə kimi o zamanın hadisələri yaxşı yadımdadır. Xain basqın nəticəsində 193 nəfərimiz şəhid, 102 nəfərimiz isə əlil oldu. İndi də hamı o günü səbirsizliklə gözləyir ki, nə vaxt bizim doğma Şuşamız və digər işğal altında olan yurd yerlərimiz bizim nəzarətimizə qayıdacaq".

**Hərbi ekspert hesab edir ki, Sərkisyanın növbəti dəfə Azərbaycan ərazilərinə qanunsuz səfər etməsini də cavabsız qoymaq olmaz:** "Ən azından Azərbaycan olaraq biz bu həyasızın bu hərəkətlərinə görə onunla təmaslara moratorium qoymalı, beynəlxalq qurumlara sübut etməliyik ki, siz nə qədər bu şərəfsizin nazı ilə oynayacaqsınız, hiyləgərcəsinə susacaqsınız, biz onlarla bir masa arxasına oturmayacağıq! O zaman ATƏT-in bivec Minsk Qrupu və digər əlaqədar qurumların necə əl-ayağa düşəcəklərinin şahidi olacaqsınız. Ən azından biz bu variantı da işə salmalıyıq".

**Mayın 8-də işğalçı ölkənin növbəti dəfə Azərbaycanı Ermənistanın Tavuş villayətini "atəşə tutmaqda" ittiham etməsinə gəldikdə, Ü.Cəfərov bunu səbəbsiz saymır:** "Düşmən öz qanunsuz hərəkətlərinə don geyindirmək və bəraət qazandırmaq üçün əvvəlki taktikasına qayıdış edir. Yəni Azərbaycanı guya Ermənistan ərazilərini atəşə tutmaqda günahlandırmaq və bir fon yaratmaq istəyir. Əslində isə ağıllı insanlar bunun yalan və məqsədyönlü olmasını anlayırlar. Bizi maraqlandıran işğal altında olan ərazilərimizdir və çalışırıq ki, düşmən oralardan rədd olub getsin. Amma görünən odur ki, bunları başa salacaq yeganə qüvvə Azərbaycan Silahlı Qüvvələri olacaq".

**Hərbi ekspert qeyd etdi ki, bu arada ermənilərin ordu birləşməsinin komandiri, eyni zamanda rus-erməni birgə hərbi birləşməsinin rəhbəri general Makaryan da həddini aşan və özündən razı formada bir açıqlama verib:** "Əslində bu çox gözəl imkandır ki, biz Ermənistana havadarlıq edən həmən Rusiyaya göstərək ki, "buyurun, bu da sizin erməni əlaltılarınız!" Bunlar artıq o qədər harınlayıb və özlərinə valeh olublar ki, verdikləri bəyanatlarda Rusiyanın ali siyasi rəhbərliyini də saya salmadıqlarını dillərinə gətirməyə cürətləri çatır. Axı hamımız yaxşı başa düşürük ki, bunların çörəyi də, suyu da, az qala havası da rəsmi Moskva tərəfindən verilir. Ona görə də inanıram ki, tez bir zamanda ağaları bunların "iplərini" bir qədər yığışdıracaq. Yoxsa belə getsə, bunlar hələ çox "hürəcək və şıltaqlıq" edəcəklər".

**"Sərkisyanın işğal altında olan Azərbaycan torpaqlarına gəlməsi, işğal günlərini qeyd etməsi, sadəcə, nəticədir. Səbəb isə torpaqlarımızın Ermənistanın işğalı altında olmasıdır. İşğal davam etdikcə bizi qıcıqlandıran addımlar da davam edəcək". Bu fikirlər politoloq Elçin Mirzəbəyliyə məxsusdur. Ekspert "Yeni Müsavat"a bildirdi ki, bütün bunlara son verməyin yolu torpaqlarımızın azad olunmasından keçir:** "İndiki halda bizim verəcəyimiz reaksiya nəyi dəyişəcək ki? Bizim fərqli şəkildə təqdim olunan bir məsələmiz var: "Dua oxumaqla donuz darıdan çıxmaz". Şuşanın işğalı Qarabağın Azərbaycana məxsus mənəvi yükünün işğalıdır. Torpağı Vətən edən də həmin o mənəvi yükdür, dəyərlərdir. Bu baxımdan, Şuşa Qarabağın təkcə mədəniyyət yox, həm də mənəviyyat rəmzidir. Düşmənin bizi təxribatlara alışdıra bildiyini düşünmürəm. Ötən ilin aprel ayında baş verən döyüşlər və Azərbaycan xalqının əhval-ruhiyyəsi sübuta yetirdi ki, bizə təslimçiliyi təlqin edə bilməyiblər. Bu millətin toparlanması üçün isə çox az bir zaman və çağırış lazımdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu xatırlatdı ki, Ermənistan prezidenti Serj Sərkisyan ilk dəfə deyil Xankəndinə və Şuşaya gəlir:** "O, il ərzində dəfələrlə bu cür təxribatlara əl atır. Sərkisyan Şuşanın işğalı günü Dağlıq Qarabağa gəlişi ilə Azərbaycana mesaj vermək istəyir ki, işğal etdikləri əraziləri, o cümlədən Şuşanı azad etməyəcəklər. Fikrimcə, Azərbaycan XİN elə bu saatlarda Sərkisyanın Şuşaya işğal günü təxribatçı səfəri ilə bağlı açıqlama yaymalıdır. Təxribata hüquqi qiymət verməlidir. Ancaq bu, azdır. Nəhayət ki, Azərbaycandan belə bir açıqlama da verilməlidir ki, Ermənistan rəsmilərinin işğal altındakı bölgələrə mütəmadi səfərləri sülhə xidmət etmir, tam əksinə, savaş gününü yaxınlaşdırır. Bu mesaj beynəlxalq aləmə də ünvanlanmalıdır. Qoy sonra kimsə bizi atəşkəsi pozmaqda ittiham etməsin".

**E.Şahinoğlu bir məqamı da unutmamağı məsləhət görür:** "Qəribədir ki, Minsk Qrupu nə Sərkisyanın işğal altındakı səfərlərinə, nə bu bölgələrə qeyri-qanuni köçə, nə də Ermənistan ordusunun Dağlıq Qarabağ ətrafındakı rayonlarda hərbi təlimlərinə etiraz edir. Sonra da bizdən atəşkəsə riayət etməyimizi istəyirlər. Birdəfəlik vasitəçilərə bildirilməlidir ki, əgər onlar Ermənistan hakimiyyətinin bu təxribatçı əməllərinin qarşısını almaqda gücsüzdürlərsə və qarşı tərəfin bu addımlarına seyrci qalacaqlarsa, Azərbaycanı ordusunun işğalçıya qarşı istənilən an antiterror əməliyyatına başlamaqdan başqa seçimi qalmayacaq. Ötən ilin aprelindəki itkiləri onlara hələ dərs olmayıb. İşğalçı cəbhə bölgəsində minlərlə itki verməyənə qədər ağlı başına gəlməyəcək".

**Azərbaycanın Xarici İşlər Nazirliyi Şuşa şəhərinin işğalının ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də Azərbaycanın qədim Şuşa şəhəri işğal olunub. İşğal nəticəsində Şuşa şəhəri və rayonun 30 kəndi dağıdılıb, 195 nəfər dinc sakin həlak olub, 165 nəfər yaralanıb, 58 nəfər itkin düşüb, 24 mindən çox əhali etnik təmizləməyə məruz qalıb. "Müvəqqəti işğal altında olanı Dağlıq Qarabağ regionu həmişə Azərbaycanın ayrılmaz hissəsi olub və olacaqdır"-sənəddə vurğulanır. XİN bəyan edir ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycanın ərazilərinin işğal edilməsini qınayan və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələr qəbul edib. Təhlükəsizlik Şurası bu qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq edib və işğalçı qüvvələrin bütün işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Rəsmi Bakı beynəlxalq ictimaiyyəti beynəlxalq hüquqa əsasən üzərinə düşən öhdəliklərinə əməl edərək Azərbaycan ərazilərinin işğalına son qoyulması və öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, danışıqlarda konstruktiv addımların atılması üçün Ermənistanın sülhə məcbur edilməsinə və ona ciddi siyasi-diplomatik təzyiqlərin göstərilməsinə çağırıb:** "Azərbaycan münaqişənin danışıqlar yolu ilə tezliklə nizamlanmasında və regionda davamlı sülhün təmin edilməsində ən maraqlı tərəfdir. Danışıqlar Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoyulması ilə nəticələnməsə, Azərbaycan BMT Nizamnaməsində təsbit olunduğu kimi, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpasını təmin etmək hüququnu özündə saxlayır".

Amma ikili standartlar varkən çətin ki, rəsmi Bakının çağırışına beynəlxalq təşkilatlardan ciddi reaksiya gəlsin. Reaksiya bir halda gələcək: Azərbaycan əsgəri Şuşanın azad olunması uğrunda əməliyyatlara start verəndə. Ötən illərin təcrübəsində ermənipərəst qüvvələrin bənzər narahatlığını dəfələrlə görmüşük...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Süleymana qalmayan Dağıstanın Ramazanı

## Ramazan Abdulatipov hakimyyətə necə gəldi?

**Dağıstan ölkəsinin əsirlərlə oturuşmuş, bərkiyib qaya parçasına çevrilmiş bir qədim ənənəsi var. Dağıstan diyarı heç vaxt...bir də təkrarlayıram, heç vaxt bir adamın ixtiyarında olmayıb. Dağıstan hakimlərinin uzun silsiləsində bu ənənə yalnız bircə dəfə-Şeyx Şamil təkhakimiyyəti dövründə pozulub. Vəssalam...**



Lakin Kreml indi oxşar təcrübəni Dağıstanda yenidən tətbiq etməyə hazırlaşır. Niyə? Çünki 2012-ci ildən üzü bəri Kremlin Dağıstanla bağlı çox güclü şahmat gedişləri start götürərək indiyəcən davam edir. Bu səbəbdən "Dağısan" və "Dərbənd" brendləri konyak şüşələri üzərindən, kriminal xronikalardan sakitcə silinir bir növ. Həkk edilir "Dağıstan" hərbi gəmisinin polad gövdəsinə.

Uzaqvuran "Kalibr" raketləri ilə silahlanmış bu əjdaha gəminin Xəzər sularında görünməyi sonrakı Suriya əməliyyatının ilk müqəddiməsi də sayıla bilər indi. Gəmi Zelenedolsk gəmiqayırma karxanasında (Tatarıstan) Kremlin birbaşa xüsusi əmri ilə tikilib. Uzunluğu 102,2 metr, eni 13, 1 metrdir. Suriyadakı vəhhabi düşərgələrini darmadağın edən "Kalibr" raketləri ilk olaraq məhz bu gəmidə sınaqdan keçirilib. Gəminin ilk dəniz səfəri problemlərlə yadda qalıb. 2012-ci ilin yanvarında, hələ Qara dəniz hövzəsində üzərkən o qasırğaya düşərək ciddi zədələnib. Təmirdən sonra üzüb gəlib Xəzər hövzəsinə.

**KİÇİK HAŞİYƏ:** "Dağıstan" gəmisinin bioqrafiyasını diqqətlə izləyin. Görəcəksiz, aman Allah, bu gəminin bütün həyat bioqrafiyası sadə deyil. Rusiyanın yeni Suriya kursu ilə eyni marşrutu təkrarlayır. Yəni, 2012-ci ilin martında ikinci dəfə Rusiya prezidenti kürsüsünə yiyələnən Putin, Suriya istiqamətində başlayır məxfi hazırlıqlara. Uzaqvuran "Kalibr" raketləri ilə silahlanmış "Dağısan", "Tatarıstan", "Uqliç" kimi gəmiləri tikdirib gətirir Xəzər sularına.

Bütün bu dinc mənzərələrin arxasında bilirsiniz nə gizlənib? Rusiya Xəzər Hərbi donanmasının gələcək müharibəyə hazırlığı...Görünür, Putin "Kalibr" raketlərinin "Dağıstan"da quraşdırılmasını şəxsən özü inspeksiya edib. İŞİD əgər salyut atəşi zamanı bu raketlərin sınaq uçuşları da həyata keçirilibsə, həəə...onda necə deyərlər torbada pişik var. Bu "pişik"i indi gəlin deşifrə etməyə çalışaq. Mümkündür ki, həmin qara "pişik" bax bu raketatan gəmini öz hesabına, yaxud bir məxfi fondun hesabına maliyyələşdirib.

***

Ancaq al-ulduzlu Kreml üçün Dağıstan mövzusu təkcə elə hərbi gəmilərlə məhdudlaşsa idi nə vardı ki... Qərar verilir-yeni geopolitik situasiyaya cavab verməyən Dağıstan rəhbərliyi dəyişdirilməli, Mahaçqala dəniz limanı hərbiləşdirilməlidir. Putinin bu əmri havada çox qalmır. Volodino zaman Rusiya Prezident Administrasiyasının birinci müavini, indi Dövlət Dumasının sədri- katibəsinə əmr verir ki, hələ Saratovdan yaxşı tanıdığı Ramazan Abdulatipovun şəxsi işini təcili olaraq arxivlərdən çıxartsın. Ötürsün Putinin yazı masası üzərinə.

O da görsün kimdir bu "torbadakı vəhşi pişik".

Həmin "vəhşi pişik" bir gün bu boğazı dar torbadan eşiyə sıçrayacaq. Cumacaq Dağıstan klanlarının üzərinə. Bu klanların arxasındakı oliqarx Süleyman Kərimovu altdan yuxarı bir zərbə ilə nokauta salacaq.





Sonrakı hadisələrin dramatik inkişafı əsl kriminal xronikanı xatırladır. Mafioz Dağıstan klanlarını hakimiyyətdən uzaqlaşdırmaq o qədər də asan olmur Kreml üçün.

***

14 yanvar 2013-cü ildə Kremldə Vladimir Putinlə Dağıstan prezidenti Maqomedsalam Maqamedov görüşürlər.

Sonra ortaya dezinformasiya atılır. Deputat Aleksandr Xinşteyn, Duma səngərləri arxasından astaca başını çıxararaq deyir ki, bəs yaxınlarda bəzi Şimali Qafqaz liderləri öz vəzifələrini itirəcək. Hadisələrin sonrakı icrası tapşırılır "Qafqaz düyünü" saytına. Saytın səhifələrində müsahibə verən Abdulatipov əvvəlcə özünü vurur bilməməzliyə. Sabiq Dağıstan rəhbərliyini tərifləyib çıxarır dağ başına. Dağıstan prezidenti kürsüsünə iddialı Mahaçqala meri Said Amirovdan özünü sığortalayır. Sonrakı hadisələr lap absurd teatrını xatırladır. Yaxud tam məxfi bir əməliyyatın göz aldadıcı manevrlərini. 27 yanvarda mətbuata açıqlama verən Abdulatipov bildirir ki, Dağıstan mənlikdi. Vətənimə özüm başçılıq edəcəm. Elə həmin andaca əvvəlcədən düşünülmüş bir şahmat gedişiylə Dmitri Peskov mətbuata xəbər ötürür ki, bəs guya prezidentin imzaladığı sənədlər arasında Abdulatipovun adı yoxdu.

Sabahısı günü mətbuatda işıq üzü görən rəsmi sənəddə isə artıq Abdulatipovun adı vardı.

***

Kreml, Said Amirovu bax beləcə aldadaraq başının altına bir-iki balış qoyur. Bu Mahaçqala meri Dağıstan prezidenti kürsüsünə iddialı bir saylı namizəddir. Şəxsi qoruması 150 nəfərdən ibarət bu mafioz şəxs Dağıstan üçün üz qarası, silinməz bir ləkədir. Yola çıxdımı, vəssalam, ardıca eyni nömrəli (!) cangüdənlərlə dolu 15 "Mercedes-Benz Gelandewagen" karvanı yola düşərmiş.





Demək...

Demək, Mahaçqala 15 cinayət dəstəsinin tam nəzarəti altında imiş. Demək, hər ərazini bir "Mercedes-Benz Gelandewagen" əyləşmiş qoluzorlu mafioz şəxs idarə edirmiş.

***

Ramazan Abdulatipov vəzifəyə təkcə öz komandası ilə gəlmir. Özü ilə birgə Dağıstan internet dünyasına "Daq-Nyus" saytını da gətirir. Sonra öz bütün diqqətini yönləndirir bax bu Said Amirovun həbsinə.

"Xaç atası" filminə baxıbsınız, hamınız. Görübsüz də harada adətən qətlə yetirirlər İtaliya mafiozlarını-teatr lojalarında!

Ancaq Said Amirov italyan operası azarkeşi deyildi. Futbol azarkeşi idi ancaq. Bu səbəbdən onun həbsi 1 iyun 2013-cü ildə Mahaçqalada keçirilən "Anji"-"SSKA" futbol oyunu zamanı həyata keçirilməli imiş. Bütün Dağıstanı cibində gəzdirən bu hiyləgəri həbsə almaq, 150 cangüdənini, 15 "Mercedes-Benz Gelandewagen"də əyləşmiş snayperlərini neytrallaşdırmaq o qədər də asan iş görünməsin indi sizə. Deyilənlərə görə, Abdulatipov bu əməliyyatın bütün məxfi detallarını Kreml ilə birgə hazırlayıb. Operativ əməliyyat planı hazır olunca icrası ötürülüb FSB-nin xüsusi təyinatlılarına.

Qara maskalılara...

***

Dağıstan futbolçularının Moskva ordu klubu ilə oyunu Said Amirovun sakit həbsi ilə yadda qalır. Xüsusi texnikadan, səs qumbaralarından istifadəyə ehtiyac qalmır daha. Hamının gözü oyunun bir gərgin səhnəsinə sancıldığı zaman Saidovun qollarında qandallar şaqqıldayır. Stadionun qarşı tərəfində əyləşmiş Abdulatipova xəbər ötürülür ki, bəs narahat olmasın. Balıq iti tilova düşüb.

**KİÇİK HAŞİYƏ** - Həbsdən azca əvvəl "Qafqazpress" saytında Amirova qarşı nəşr edilmiş növbəti dezinformasiya yayılır. İddia olunur ki, bəs guya Amirovun həbsi zamanı atışma baş verib, o yaralanıb və s. i. və ilaxır. "Dezonu" udan Amirov dərk edir ki, budəfəki həna əvvəlki deyil. Daha tündü. Demək...

Demək, Abdulatipov bu həbs zamanı əslində bir başqa mafioz şəxsdən-Dağıstan oliqarxı, senator Süleyman Kərimovdan çəkinib. İlk növbədə bu şəxsi aldatmaq istəyib həmin həbs ərəfəsində.

Hamıya bəllidir ki, bu şəxs uzun zaman Dağıstanın əsas "pul kisəsi", həm də "boz kardinalı" kimi tanınıb. 2010-cu ildə Dağıstan rəhbəri seçilən Maqomedsalam Maqaqomedov da bu pul kisəsindən çıxmış cırtdanlardan biridir. Said Amirovu da, televizor kimi, "uzaqdan komandalı" əl cihazı ilə idarə edib o.

Süleyman Kərimov, o vaxtlar Kreml rəhbərliyini aldadır ki, ay bağ belə, bostan belə ... Mən Kaspiysk şəhərində ən müasir şüşə fabriki tikəcəm, Xəzər sahillərində təzə şəhər salınacaq. 1 milyard avronu Dağıstanın turist sektoruna yatıracağam...

Ancaq bütün bu hava söhbətlər sabun köpüyü kimi çox tezliklə partlayır. Kremlə bəlli olur ki, Süleyman Kərimov cığallıq edir oyunda. Öz şirin vədlərinə əməl etmir.

Vəziyyəti kritik görən Süleymanov öz namizədliyini 2013-cü il Dağıstan prezidenti seçkilərində irəli sürmək istəyir. Kremllə məsləhətləşir. Ancaq sonra bəlli olur ki, 8 sentyabrda dövrü mətbuatda nəşr edilmiş namizədlərin siyahısında itin-qurdun adı var, ancaq Süleymanın adı yoxdur.

Nəticədə, Kərimovun Mahaçkala aeroportunun, dəniz limanının özəlləşdirməyi qalır havada. Sonra bəlli olur ki, Süleyman Kərimovun "Ural-kaliy" gübrə konserninin sədri Vladislav Baumqartner Belarusiyada həbsə atılıb. Bəs ortada milyard dollar həcmində yeyinti var...

Süleyman Kərimov həm də yuxarıda adını çəkdiyimiz "Anji" futbol klubunun sahibi idi. Klubun növbəti - 1 iyun 2013-cü il matçı məğlubiyyətlə yadda qalır. Oyun zamanı Süleymanın əlaltısı Said Amirov Moskvadan gəlmə qara maskalılar tərəfindən qandallanır. Atılır qazamata. Yəni it də gedir, ip də. Maqomedov da gedir, Amirov da, elə "Anji" klubunun özü də.

Stadionun qarşı tribunasından isə onun üzünə Abdulatipov gülümsəyir.

Bütün bu sadaladıqlarımız göstərir ki, Abdulatipov çox uzaqgörən, xatalı bir siyasətçidir. Belələri barədə xarici kəşfiyyat qurumlarında adətən gizli dosyelər hazırlanıb ötürülür açılmaz polad seyfləri. Gəlin, şeytanın qıçını qıraraq biz də öz dosyemizi hazırlayaq bu mövzu ətrafında.

**DOSYE:**

Şimali Qafqazda iki fərqli Ramazan var-biri, qılıncla baş kəsir-bu, Çeçenistan prezidenti Ramzan Kadırovdu. Digəri pambıqla-bu kəs Dağıstan rəhbəri Ramazan Abdulatipovdu.

Ramazan Abdulatipov 4 avqust 1946-cı ildə Dağıstanda, ucqar Qebquda kəndində dünyaya göz açıb.

**ÇƏKİSİ:** 74 kiloqram.

**BOYU:** 183 sm.

**ULDUZ BÜRCÜ-**Aslan. Çin təqviminə görə İt ilində doğulub.

**AİLƏSİ:** Atası Hacımurad Abdulatipov müharibə iştirakçısı idi. Evlidir. Üç uşaq atasıdır.

**ELMİ FƏALİYYƏTİ:** Rusiya Konstitusiyası mətninin müəllifidir.

**HOBBİSİ:** Voleybol.

**MUSİQİ ZÖVQÜ:**Azərbaycan təranələri.

**MİLLİYYƏTİ:** Avar.

***

Süleyman Kərimov Xəzərdə baş vermiş bu tufanın mənasını, gizli hikmətini çox-çox sonralar dərk edir. "Dağıstan" gəmisindən qalxan "Kalibr" raketləri Suriya ərazisində partladığı vaxt, hə, diksinib öz ayı yuxusundan ayılır.

Anında başa düşür niyə Mahaçqala dəniz limanı, aeroportu onun özəlləşmə planlarından kənarda qalıb. Niyə Moskva onu deyil, Ramazan Abdulatipovu öz nümayəndəsi seçib Dağıstanda?

Məncə, Rusiya oliqarxı Abramoviç İngiltərənin məşhur "Çelsi" klubunu almayıb. Tam tərsinə, "Çelsi" Abramoviçi alıb. Nəticədə Çukotkanı nəzarətə götürüb. Belə biznes məxfi mahiyyət daşıyır. Müasir dövrdə təbii sərvətlər dünya oliqarxiyası tərəfindən bax bu cür nəzarətə götürülür adətən. Dediklərim, məncə, Süleyman Kərimova da aiddir.

***

Pis günün ömrü az olar deyirlər. 17 yanvar 2017-ci ildə talenin səmt küləyi yenidən Abdulatipov ilə Süleyman Kərimovu görüşdürür. Rusiyada istedadlı uşaqları öz sıralarında birləşdirən "Siruis" studiyası bu iki siyasi fiqurun yeni voleybol meydançasına çevrilir. Putinin şəxsi himayəsi altında fəaliyyət göstərən Soçi qeydiyyatlı bu fond Rusiyada çox məşhurdur. Ramazanla Süleymanın bu fonda təyinatını da, görünür, məhz Putin özü imzalayıb.

Ancaq bu hər iki fiqurun zövqləri çox fəqlidir - Süleyman futbolu sevir, Ramazan isə voleybolu. İnanmıram bu layihə çərçivəsində onlar bir məqsədə, bir nəfərə, bir hədəfə qulluq etsin.

**Futbol ilə voleybol tamam fərqli dünyalardı.**

❑ **Həmid HERİSÇİ**

# Donald Tramp "sirli məktub"u oxusa, istefaya məcbur qala bilər

## ABŞ prezidentinin dünyanı şoka salan siyasi tezisləri…

**ABŞ qəribə ölkədir. Bu ölkənin nə vaxt nə edəcəyini, baş verən hadisəyə necə reaksiya verəcəyini müəyyənləşdirmək çətindir. Ona görə də beynəlxalq siyasət məkanında cərəyan edən proseslərə münasibətdə adətən ABŞ-ın reaksiyası xüsusi olaraq, gözlənilir. Və proseslərin sonrakı inkişaf istiqamətləri əsasən həmin reaksiyanın məzmunundan birbaşa asılı olur.**

Təbii ki, bu baxımdan ABŞ-da kimin prezident postuna sahiblənəcəyi həmişə dünya ictimaiyyəti tərəfindən cavabı maraqla gözlənilən sualların sırasına daxildir. Hətta bu sual birmənalı cavabını tapdıqdan sonra belə, müzakirələr öz intensivliyini saxlayır.

Maraqlıdır ki, Ağ Evin yeni sahibi Donald Trampın prezidentliyə namizədliyi irəli sürülən gündən analoji suallar və mübahisələr intensivliyini saxlayıb. D.Tramp Ağ Evin oval kabinetindəki kresloda öz yerini artıq rahatlasa da, dünya ictimaiyyəti hələ də çaşqınlıq içərisindədir.

Məsələ ondadır ki, D.Trampın Ağ Evə sahiblənməsi insanlarda dünyanın gələcək taleyi ilə bağlı yeni və kifayət qədər ciddi suallar, həm də narahatlıq doğurub. Halbuki bu narahatlıqlar hələ D.Trampın seçkiyə qatıldığı dövrdən var idi.

### Ağ Ev sahibinin qəribə və gözlənilməz davranışları…

Belə ki, həmin dövrdə mütləq əksəriyyət D.Tramp kimi qeyri-adi, davranışları əvvəlcədən proqnozlaşdırılmayan bir sərvət sahibinin hakimiyyətə gəlişinin mümkün olmadığını düşünürdü. Ancaq bir müddət sonra D.Trampın önə keçdiyi aydınlaşdıqda, bu düşüncələrin məzmunu "...əgər, o, seçilsə belə, Ağ Evdə uzun müddət otura bilməz. ABŞ vətəndaşları onu qısa müddətdə biznes sahəsinə geri yola salarlar", iddiaları ilə əvəzlənməyə başladı.

Halbuki D.Tramp artıq öz prezidentliyinin yüz gününü də arxada buraxıb. Bununla belə, hələ də onun tezliklə Ağ Evdən qovulacağına inananlar olmamış deyil. Və təbii ki, bu, D.Trampın şəxsiyyətinin dünya ictimaiyyətində qorxu yaratmasıyla bağlıdır.

Bu qorxunun yaranması isə səbəbsiz olmayıb, D.Trampın gözlənilməz davranışları və açıqlamaları ilə bağlıdır. Çünki bu adam İslam dünyasının təmsilçiləri ilə rəsmi görüşdə Azan oxunarkən ayağını ayağının üzərinə aşırıb, mürgüləyən arvadını nümayişkaranə və kobud şəkildə dümsükləməkdən özünü saxlaya bilməyəcək bir xarakterdədir.

Və yaxud da prezident kimi keçirdiyi ilk mətbuat konfransında dünyanın ən nəhəng media qurumlarından olan CNN telekanalının əməkdaşına, əks-təbliğat təhlükəsi olsa belə, "Sən sus, suallarına cavab verməyəcəm. Sənin işlədiyin telekanal qərəzlidir", deyəcək qədər cəsarətlidir.

Üstəlik, o, heç kimin gözləmədiyi halda, Rusiyanın Suriyadakı Əsəd rejimi ilə ortaq hərbi bazasına raket zərbəsi endirilməsi barədə əmr verəcək səviyyədə proqnoz ortamından uzaqdır. Və əlbəttə ki, bu sıraya Vaşinqtona rəsmi səfər edən Almaniya kansleri Angela Merkelə qarşı D.Trampın mətbuat nümayəndələri önündə etdiyi kobudluqla müşayiət olunan hörmətsizliyini də əlavə etmək mümkündür.



Bu misalların sırasını genişləndirmək də olar. Ancaq buna o qədər də ehtiyac yoxdur. Çünki D.Trampın siyasi cəhətdən "ana açıqlama"sı onun dünyanın gələcək taleyi ilə bağlı nə qədər ciddi və gözlənilməz qərarlar verə biləcəyinin ən önəmli xəbərdarlığı idi. Və dünyanın nəhəng dövlətlərini qorxuya salaraq, narahat edən də elə həmin açıqlama idi.

Məsələ ondadır ki, D.Tramp: **"Belə davam edə bilməz. Yetər artıq... Dünyada yeni qanun-qaydalar yaradılmalıdır. ABŞ dünyada öz liderlik mövqelərini mütləq bərpa etməlidir. Mən bütün bunlar üçün əlimdən gələn hər şeyi edəcəm"**, demişdi. Və dərhal da dünyanın siyasi mərkəzlərində şok effekti yaratmışdı. Həmin şok effekti hələ də öz təsirini saxlayır.

Əslində bu, qətiyyən təəccüblü deyil. Çünki "yaşıl planet"in sakinləri artıq bu "film"i bir dəfə həm görüblər, həm də onun "çəkilişlər"ində məcburən iştirak ediblər. Həmin dəhşətli "filmin nümayişi" on milyonlarla günahsız insanın həyatı bahasına başa gəlib. Saysız-hesabsız şəhərlər dağıdılıb, "qan su yerinə axıb".

Məsələnin ən qəribə tərəfi isə həmin "filmin ssenaristi və rejissoru" da bir alman - Adolf Hitler idi. O da geniş kütlələrə xitab edərkən dünyada yeni qaydaların bərqərar edilməsinin vacibliyindən və qaçılmazlığından danışırdı. Almanları ali irq elan edirdi, Almaniyanın isə dünyaya hakim olmalı olduğuna əmin idi. Və bütün bunların yekun nəticəsi hər kəsə məlumdur. Ən əsasısa, "yaşıl planet"in sakinləri bu dəhşətli fəlakəti hələ unutmayıb.

İndi eyni siyasi tezisləri ABŞ-ın yeni prezidenti Donald Tramp, həm də XXI əsrdə gündəmə gətirib. Həm də özünün əsas daxili və xarici siyasət proqramı kimi təqdim edib. Və bu proqramın reallaşdırılmasında israrlı olduğunu da ABŞ-da miqrantlara qarşı "savaş elan etmək"lə büruzə verib.

Siyasi strateqləri və politoloqları qorxuya salan əsas məqam da məhz elə budur. Çünki Donald Tramp da bir almandır. Onun ata tərəfindən baba və nənəsi alman immiqrantları olublar. Onun əsas tezislərini və milliyyətini yan-yana gətirdikdə tarixin təkrarlanma təhlükəsinin reallaşma ehtimalından narahatlıq üçün müəyyən əsaslar yaranır.

### Donald Trampın üzərinə qoyulan missiya…

Bir çoxları D.Trampın aqressiv təsir bağışlayan siyasi dünyagörüşünü onun özü üçün problem hesab edirlər. Onların fikrincə, bir müddətdən sonra D.Tramp kəskin daxili və xarici müqavimətlə üzləşə bilər. Və nəticədə o, istefa vermək məcburiyyətində qalar.

Ancaq hələlik bu proqnozlar özünü doğrultmur. Belə ki, ABŞ-da D.Trampa qarşı intensiv xarakter daşıyan ölkədaxili aksiyalar da artıq arxa plana keçib. Əslində onun daxili etirazlarla istefaya məcbur edilə biləcəyinə inanmaq da sadəlövhlük olardı. Çünki D.Trampı ABŞ prezidenti seçdirən "dərin güclər" onun hansısa aksiyalarla qısa müddətdə hakimiyyətdən uzaqlaşdırılmasına imkan verməzlər. Hər halda, "dərin güclər" D.Trampı prezident seçdirərkən onun vasitəsiylə bəzi radikal ssenariləri reallaşdıra biləcəklərini əvvəlcədən hesablamış olmalıdırlar. Bu baxımdan, D.Trampın "dərin güclər" tərəfindən onun üzərinə qoyulan missiyanı yerinə yetirmədən Ağ Evi kiməsə təhvil verəcəyi qətiyyən inandırıcı deyil.

Maraqlıdır ki, prezident D.Trampın özünə qarşı təzyiqlərə verdiyi reaksiya da əvvəlki Ağ Ev sahiblərinin davranışlarından ciddi şəkildə fərqlənir. Belə ki, o, istənilən problemlə bağlı tənqidlərə özündən əvvəlki Ağ Ev sahibini günahlandırmaqla reaksiya verir. Hətta bəzi hallarda günahı özünün siyasi komandasındakı bəzi məmurların üzərinə yükləməkdən də çəkinmir.

Yəni o, özündən başqa hər kəsi günahlandırmaq, hətta qurban vermək vərdişlərinin mövcudluğunu qətiyyən gizlətmir. Bu baxımdan, onun atacağı addımlara yönəlik tənqidlərə tab gətirmək potensiallı qurban verə biləcəyi şəxslərin əhatə dairəsinin nə qədər geniş olmasına düz mütənasib kimi görünür.

### Ağ Ev sahibi "mücrüdəki sirli məktublar"ı oxumağa məcbur olacaqmı?

Təbii ki, D.Tamrpın bu vərdişləri üzləşdiyi situasiya qocaldığı üçün idarəçiliyi öz gənc yardımçısına ötürən şəhər rəisi ilə bağlı rəvayətə bənzəyir. Belə ki, rəvayətə görə, qoca şəhər rəisi idarəçiliyi öz gənc yetirməsinə təhvil verərkən ondan məsləhətlərini də əsirgəmir. Ancaq o, məsləhətlərini şifahi deyil, yazılı şəkildə təqdim edir: **"Oğlum, masadakı mücrüdə sənin üçün üç məktub qoymuşam. Şəhəri idarə etməkdə çətinlik çəksən 1-ci məktubu, vəziyyət nəzarət çıxmağa başlayanda 2-ci məktubu, situasiya nəzarətdən tam çıxsa 3-cü məktubu oxuyarsan"**.

Gənc şəhər rəisi elə də edir. Vəziyyət gərginləşdikdə 1-ci məktubu açır və oxuyur: **"Çıxış yolu üçün özündən əvvəlki rəhbərləri günahlandır"**. Bir müddət sonra situasiya nəzarətdən çıxmaq üzrə olduqda 2-ci məktubu oxuyur: **"İndi də bütün problemlərə görə öz yaxın ətrafını günahlandır"**. Nəhayət, şəhəri idarə edə bilmədikdə 3-cü məktubu açır və heyrətə gəlir: **"Sən artıq bu şəhəri heç vaxt idarə edə bilməyəcəksən. Ona görə də sən də mənim kimi 3 məktub yaz, mücrüyə qoy və şəhəri təhvil ver"**.

Əlbəttə ki, bir çoxlarının vaxtından əvvəl istefa vermək məcburiyyətində qalacağını düşündükləri D.Trampın taleyinin bu rəvayətdə baş verənləri təkrarlayacağını iddia etmək hələ çox tezdir. Çünki bunun üçün ən azından prezident D.Trampın mücrüdəki 3-cü sirli məktubu oxuması lazımdır. Deməli, hər şeyi zaman göstərəcək.

❑ **Elçin XALİDBƏYLİ**

---

# Casus yetişdirmə potensialımız



**Samir SARI**

**Hər dəfə belə xəbər yayılanda məmləkət əhlinin xeyli hissəsi sarsılır, şok keçirir, söyüb-söylənir, asır-kəsir. Bir xeylisi də ritorik sual verir: "Yəni belə şey olarmı? Adam da vətəni düşmənə sata bilərmi"?**

Bu sualı verənlərin tam əksəriyyəti elə bir variantı ağlına yerləşdirə bilməyənlərdir, onlar heç cür qavraya bilmirlər ki, sırf azərbaycanlı olduğun üçün səni öldürməyə, zorlamağa hazır olan, evini yağmalayıb yandıran, kəndini, şəhərini bayquşlar ulayan xarabazara çevirən düşmənə vətəni necə satmaq olar.

Hərçənd o cür deyən, "vətən" deyəndə beşi də ağzından düşən adamların içində az-az olsa da vətəni satmağa hazır olanlar da ola bilər, bu cür sual qoymaları da sırf maskalanmaq üçündür, durub deməyəcəklər ki, təbiidir, vətəni düşmənə satmaq olar.

Əslində məsələ belədir ki, vətəni nəinki düşmənə, heç dosta da satmaq olmaz. Hansısa özünü dost göstərən yaxın-uzaq dövlətin xüsusi xidmət orqanları və ya qeyri-hökumət təşkilatları adamdan vətəni satmasını *(əslində "al pulu, vətəni mənə sat" deyən olmur, burada ritorika başqadır)*, ona işləməsini istəyirsə, buna görə qrant (pul) verirsə, başqa şeylərlə şirnikləndirirsə, demək, onun məkrli niyyəti var və o, bütövlükdə bu millətə, dövlətə düşməndir.

Yoxsa ölkəmizdə bəzi fəallarda belə bir qənaət var ki, erməni pıxıdır, amma rus xoroşodur, İran xubdur, Türkiyə iyidir, Amerika fayndır, onlarla əməkdaşlıq etmək olar. Əməkdaşlıq da nə əməkdaşlıq, seçim qarşısında qalanda öz dövlətinin, xalqının mənafeyini qoyub, qonşu dövlətin maraqlarından çıxış etmək satqınlığın tə özüdür.

Pafoslu çıxacaqsa da, cəhənnəmə çıxsın, aqillər "öncə vətən" deyiblər.

Bu ölkənin camaatı doğma qardaşına maşın yolu üçün öz həyətindən 1 metr torpaq güzəştə getmir, amma əlində imkanı olanda (məsələn, bələdiyyə sədridirsə) dövlətin, xalqın, kəndin torpağını pay-pay, sot-sot satır. Belələri uf demədən bütöv kəndləri, rayonları, şəhərləri də satar - yetər ki, yaxşı pul verən olsun.

Bəs bu yekə-yekə dövlətlərin sirlərini düşmənlərinə satanlar kimlərdir? Əlbəttə ki, öz şəxsi rifahını, sərvətini, gələcəyini düşünən, daha varlı yaşamaq istəyən, "təki mən salim olum, cümlə-cahan batsa da, batsın" deyənlər. Satırlar, tutulmasalar, kef içində yaşayırlar, tutulsalar, hər şeylərini itirirlər.

Yazıçı Çingiz Abdullayev öz əsərlərində elə casusların, rus-sovet imperiyasına xəyanət edənlərin surətlərini yaradıb, birmənalı olaraq, hamısı, türkün sözü, kötü adamdır. Hamısının da başını axırda duzlayırlar.

Düzdür, deyilə bilər ki, hansısa ideologiyaya, bəşəri dəyərlərin təntənəsinə görə başqa dövlətlərə casusluq edənlər də olub, amma bu, boş söhbətdir. Həmin o, "bəşəri dəyərlər aşiqi"nin aylıq "qonorar"ı ikicə ay kəsilsə, görək, müftə xəbərlər ötürərdimi? Əlbəttə, ötürməzdi. Deyərdi, işləyirəm, denqi davay.

Bir azərbaycanlı casus da yüz il yüz ilə qala erməniyə pul-parasız işləməz. İstəyir ortada dünyanın, bəşər əhlinin xilas edilməsi kimi böyük və müqəddəs məqsəd olsun. Pulgir azərbaycanlı elə bir tipdir ki, dünyanın xilası əlində olsa, amma pul verilməsə, dünyanı dağılmaqdan xilas etməz, deyər, nəyimə lazımdır, qoy dağılsın, burda mənim xeyrim nədir ki, qoymayım.

Ona görə də ifşa olunmuş casuslara görə təsirlənməyə, depressiyaya düşməyə lüzum yoxdur. Biz də düşmənə işləyəsi casus yetişdirə biləcək qədər babat əclaflıq potensialı olan camaatıq. Papaq altında nə casuslar var hələ. Əllərində imkan olsa elə casusluq edərlər ki, Kim Filbi, Qordiyevski yanlarında yalan olar.

İndi kimsə deyə bilər ki, ermənilər belə şey eləməzdi. Elə deyil. Onlar da bal kimi casusluq eləyirlər. İfşa olunmaq qorxusu yarananda qaçıb keçirlər üzü bəri, 3-4 il qəşəng dincəlirlər, sonra da üçüncü ölkədən sığınacaq istəyib gedirlər. Hətta qalanlar da olur.

Hazırda qədirbilən xalqımız tələb edir ki, casusların adları açıqlansın, biləк. Bəlkə onların içində yaxın tanıdıqlarımız var, bilmirik?

YENİ MÜSAVAT
N 98 (6712) 9 may 2017

# İslamiadanın açılış və bağlanış günlərində yol hərəkəti qaydaları açıqlandı

**Bakı Nəqliyyat Agentliyi ilə Bakı Şəhər Baş Polis İdarəsi IV İslam Həmrəyliyi Oyunları zamanı açılış və bağlanış mərasimləri günlərində tətbiq olunan yol hərəkəti qaydalarını açıqlayıb.**

APA-nın məlumatına görə, IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış mərasimləri - 12 və 22 may tarixlərində paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.

Həmin günlərdə Heydər Əliyev prospektinin "Excelsior" hotelinin qarşısındakı yol qovşağından Sabunçu qəsəbəsinədək olan hissəsi və Neftçilər prospektinin "Azneft" meydanından Yusif Səfərov küçəsinə qədər olan hissəsi günorta saatlarından sonra ümumi yol hərəkəti üçün bağlı olacaq.




Açılış və bağlanış mərasimlərinin keçirildiyi günlərdə tamaşaçılar Olimpiya stadionuna metro və Bakı Nəqliyyat Agentliyi tərəfindən müəyyən ediləcək ekspress xətt avtobusları ilə gedə bilərlər. IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi zamanı tamaşaçılar saat 18.00-dan 21.00-dək, bağlanma mərasimi zamanı isə saat 17.00-dan 20.00-dək 3 ekspress xətt üzrə seçilmiş istiqamətlərdən - metronun "20 Yanvar", "Gəncllik", "Qara Qarayev" stansiyalarından Bakı Olimpiada stadionuna çatdırılacaq. Mərasim bitdikdən sonra isə stadiondan 3 ekspress xətt üzrə seçilmiş istiqamətlərdə - metronun "20 Yanvar", "Gənclik" və "Qara Qarayev" stansiyalarına daşınacaq. Metronun "Qara Qarayev" stansiyasından X1, "Gənclik" stansiyasından X2 və "20 Yanvar" stansiyasından X3 ekspress avtobusları Bakı Olimpiada stadionuna tamaşaçıları daşıyacaq.

Bakı Olimpiada stadionuna ən yaxın metro stansiyası olan "Koroğlu" stansiyasında qatarlar orta hesabla 2 dəqiqəlik intervalla hərəkət edəcək. Açılış və bağlanma mərasimləri zamanı tamaşaçıların ekspress xətlər və metro ilə daşınması pulsuz olacaq. Taksilərin Bakı Olimpiada stadionuna yaxınlaşmasına icazə verilməyəcək. Məkanın ətrafında tamaşaçıların şəxsi nəqliyyat vasitələri üçün də parklanmaya icazə verilmir. Tamaşaçılar yalnız ictimai nəqliyyatdan (metro və xüsusi olaraq ayrılmış avtobuslardan) istifadə etməlidirlər. Heydər Əliyev və Neftçilər prospektlərinin bağlı olmasını nəzərə alaraq, 1 nömrəli və 13 nömrəli marşrutlar saat 17.00-da fəaliyyətlərini dayandıracaq.

## Yanvar-mart aylarında yol qəzalarında 162 nəfər ölüb

**Bu ilin yanvar-mart aylarında ölkənin avtomobil yollarında 407 və ya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2,9% az yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr nəticəsində zərərçəkən şəxslərin sayı 3,9% azalaraq 573 nəfər olub.**

Dövlət Statistika Komitəsindən APA-ya verilən məlumata görə, onlardan 162 nəfər ölüb, 411-i isə xəsarət alıb. Hadisələrin 46,7%-i gündüz, 33,9%-i gecə, 19,4%-i isə toran vaxtı baş verib, 24,3%-i həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 89,9%-i yaşayış məntəqələrində baş verib. Bu hadisələr nəticəsində ölənlərin sayı 2016-cı ilin müvafiq dövrünə nisbətən 24,0% artaraq 119 nəfər, xəsarət alanların sayı isə 7,2% azalaraq 386 nəfər olub.

Bütün yol-nəqliyyat hadisələrinin 47,9%-i nəqliyyat vasitələrinin və piyadaların, 33,7%-i bir neçə nəqliyyat vasitəsinin, 18,4%-i bir nəqliyyat vasitəsinin iştirakı ilə baş verib. 2016-cı ilin yanvar-mart aylarına nisbətən hadisələrin sayı müvafiq olaraq 14,0% artıb, 17,0% və 9,6% azalıb.

Yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin 72,8%-ni, xəsarət alanların isə 71,8%-ni kişilər təşkil edib.

Nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən ölümlə və ya bədən xəsarəti alınması ilə nəticələnən 7 hadisə baş verib, nəticədə 4 nəfər ölüb, 5 nəfər isə xəsarət alıb. Belə hadisələrin 85,7%-i minik avtomobillərinin sürücüləri tərəfindən törədilib.

Bu ilin yanvar-mart aylarında yol hərəkəti qaydaları əleyhinə aşkarlanmış inzibati xətaların sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə eyni səviyyədə qalaraq 747,8 min olub. Xətaların 50,8%-i yolda müəyyən edilmiş hərəkət sürəti həddinin aşılması, 11,4%-i svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi, 11,3%-i dayanma və ya durma qaydalarının pozulması, 9,5%-i yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi, 3,7%-i təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsinin idarə olunması, qalan hissəsi isə digər səbəblər üzrə aşkarlanıb.

Qaydaların pozulmasına görə 15,1 mln. manat məbləğində cərimələr tətbiq edilib.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya
- ✳ Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və ya spermada qan;
- ✳ Spermanın azalması və itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;
- ✳ Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez
- ✳ 50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

bakcell

## «Bakcell» gəncləri "Smart Start" təcrübə proqramına qatılmağa dəvət edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti 18-25 yaş arası gənclərə, tələbə və məzunlara "Smart Start" təcrübə proqramına qoşulmağı təklif edir. Tələbə və məzunlar üçün nəzərdə tutulmuş 2 aylıq proqramın məqsədi karyerasında ilk addımlarını atmağa başlayan gəncləri Azərbaycanın ən böyük şirkətlərindən birində iş mühiti ilə tanış etmək, praktiki biliklər təqdim etmək və işə hazırlıq bacarıqlarını inkişaf etdirməkdir.**

**Seçimdən uğurla keçən namizədlərə satış və marketinq sahəsində 2 ay müddətində təcrübə keçmək imkanı yaradılacaq. Təcrübə müddətində gənclər şirkətin mütəxəssisləri arasından seçilən təcrübə rəhbərləri vasitəsilə müvafiq bilik və bacarıqlara yiyələnərək şirkətin ümumi strukturunu və iş prinsiplərini, öyrənir, eyni zamanda karyera planlaşdırılması, biznes etikası, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə, əməyin təhlükəsizliyi və ətraf mühit, sağlamlıq və digər mövzularda təşkil olunan təlimlərdə iştirak edirlər. Təcrübəçilərin gündəlik nəqliyyat və qida tələbatlarını ödəmək üçün «Bakcell» təcrübəçilərə müvafiq məbləğdə təqaüd verəcək. Təcrübə proqramı başa çatdıqda bütün iştirakçılar qiymətləndiriləcək və layihədə iştirak etdiklərini təsdiq edən sənədlə təltif olunacaqlar.**

**http://developtalent.bakcell.com/az səhifəsində "Smart Start" haqqında daha ətraflı məlumat almaq və 15 may 2017-ci il tarixinə qədər müraciət göndərmək olar.**

**Qeyd edək ki, 2014-cü ildən etibarən "Smart Start" təcrübə proqramında iştirak etmək üçün 5500-dən çox müraciət daxil olub. Onlardan 85 nəfər seçimdən uğurla keçərək proqramda iştirak edib. Proqramda iştirak zamanı yüksək nəticələr nümayiş etdirən məzunlardan 16 nəfər «Bakcell» şirkəti tərəfindən, 19 nəfər isə başqa şirkətlər tərəfindən işlə təmin edilib. Digər 50 nəfər isə yerli və xarici universitetlərdə təhsillərini davam etdirirlər.**

**Azərbaycanda ən böyük işəgötürənlərdən biri olan «Bakcell» şirkəti, bütün işçilər və namizədlər üçün eyni şərait yaradır. Şirkət işə qəbul və seçim prosesində şəffaflıq prinsiplərinə riayət edir.**

## Bakıda 31, rayonlarda 32 dərəcə isti olacaq

**Mayın 9-da Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə zəif duman olacaq. Arabir güclənən cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 14-17° isti, gündüz 26-31° isti, Bakıda gecə 15-17° isti, gündüz 28-30° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 752 mm civə sütunundan 756 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 65-75 %, gündüz 40-50 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var.

Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 27-32° isti, dağlarda gecə 5-10° isti, gündüz 14-19° isti olacağı gözlənilir.

## Azərbaycanda yayımlanan xarici telekanallarda reklamlar qadağan olunur

**Azərbaycanda yayımlanan xarici ölkələrin telekanallarında reklamların nümayişi qadağan edilir. Buna görə yayımçı məsuliyyət daşıyacaq. APA-nın məlumatına görə, bu, yeni hazırlanmış "Kabel şəbəkəsi yayımı haqqında" qanun layihəsinin 13-cü (Yayımçının hüquq və vəzifələri) maddəsində əks olunub.**

Maddəyə görə, kabel şəbəkəsi yayımında retranslyasiya olunan telekanallarda xarici reklamların yayımı qadağandır. Retranslyasiya olunan telekanallarda xarici reklamların yayımlanmasına görə yayımçı məsuliyyət daşıyır.

Maddədə o da təsbit olunub ki, kabel şəbəkəsi yayımında retranslyasiya olunan xarici telekanallarda reklam vaxtlarında yayım qaydaları müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən müəyyən olunur.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub və mayın 16-da müzakirəyə çıxarılacaq.

**Hansı tərəfə baxsaq piştaxtalarda alça və iri qırmızı çiyələklərin "göz oxşadığını" görərik. Satışda olan xüsusilə də bu meyvə və giləmeyvənin yanından etinasız, almadan, dadmadan çox az adam keçə bilər. Xüsusən də evdə uşaqları olanlar nübar meyvə olaraq bu iki meyvədən uşaqlarına daddırır. Ancaq pediatr Vaqif Qarayev hazırda satışda olan çiyələk və alçanın yeyilməsini məsləhət görmür, xüsusən də uşaqlarda bunun mənfi təsirlərinin ola biləcəyini vurğulayır.**

# Bakıdakı çiyələklər İsraildən gətirilib

## Çiyələk və alça yeməyin-həkimlərdən xəbərdarlıq

**"Yeni Müsavat"a açıqlama verən həkim bu meyvələrin uşaqlarda allergiya və mədə-bağırsaq pozğunluğu yarada biləcəyini dedi:** "Məntiqlə çiyələk də, alça da faydalı giləmeyvədir. Onların tərkibindəki vitaminlər, mikroelementlər həm qan damar, həm mədə-bağırsaq, tənəffüs sistеminə, intellektə müsbət təsir edir. Xüsusən də çiyələkdə C vitamini çoxdur. Amma sadaladığımın bu faydalı elementlər təbii, indi piştaxtaları bəzəyən çiyələk və alçaya aid deyil. Hazırda satılan alça və çiyələyin tərkibinə müxtəlif kimyəvi maddələr, gübrələr vururlar ki, tez yetişsin. Satışda olan çiyələyə diqqət edin, sanki rəssam əli ilə çəkilib rəngi, forması. Biz bu giləmeyvəyə gözlə baxanda bilirik ki, onu təbiət yetişdirməyib. Sanki insan əli ona müdaxilə edib. İndi satılan meyvələr birmənalı olaraq məsləhət deyil. Yaz-payız aylarında allergik problemlər kəskinləşir. Səhərdən artıq 3-cü uşaqdır ki, çiyələkdən allergiya olduğu üçün yanıma gətirilib. Bəzən olur ki, uşağın əvvəlcədən allergik problemi olub, indi isə yediyi çiyələk onu kəskinləşdirib. Hazırda süni yolla yetişmiş alça və çiyələk allergiya ilə yanaşı, mədə-bağırsaq pozğunluğu da yaradır. Azərbaycanda meyvələr də, giləmeyvələr də tez yetişir. Bayaq mənə bir xanım yazmışdı ki, mən həyətimdə yetişən alçadan uşağıma vermişəm. Həyətdəki alça ağacına da tez yetişsin deyə kimyəvi maddələr, gübrələr verilməyibsə, o təbii yetişibsə, onun uşağa heç bir zərəri ola bilməz. Söhbət süni müdaxilədən gedir. Küçələrə baxın, hər yer qırmızıdır, pomidor, çiyələk. Pomidor da əslində süni yetişdirilib. Sanki şprisi götürüb qırmızı boyanı vurub pomidoru, çiyələyi rəngləyib şiriniblər. Onların nə dadı var, nə də ki, tamı. Bir azdan meşələrdə insanlar çiyələk yığan yerdə facebookda şəkillərini paylaşacaqlar. Bax, o çiyələklər çox faydalıdır. Alçadan hazırlanan lavaş, turşu, quru meyvə faydalıdır. Həmçinin çiyələyin də quru giləmeyvəsi, şirəsi olduqca faydalıdır. Amma indi satılanlar yox".



**Hazırda hansı meyvələri yeməyin daha faydalı olacağına gəlincə isə V.Qarayev hazırda köhnə məhsulların bitdiyini, yenisinin isə çıxmadığını dedi:** "İndi ilin pis vaxtı, yeni keçid vaxtıdır. Köhnə qurtarıb, təzə də çıxmayıb. Hazırda uşaqlarda vitaminsizlik var. Kim təbii yolla hansı meyvəni, giləmeyvəni, tərəvəzləri yetişdiribsə, yeyə bilər. Ola bilər ki, hazırda satılan o iri çiyələkləri yeyənlər desin ki, heç bir fəsadı olmadı. Bu ola bilər ki, zərəri olmasın, amma bir faydası da yoxdur".

Qeyd edək ki, vaxtından əvvəl yetişdirilən meyvə və tərəvəzlərin tərkibində istifadə edilən kimyəvi maddənin miqdarının çoxluğu zəhərlənməyə də yol aça bilər. Çiyələk güclü allergik xüsusiyyətə malik olduğuna görə bu giləmeyvə hamilə və uşaq əmizdirən qadınlar və balaca uşaqlar üçün əks göstərişdir. Həmçinin mədə xorası və qastrit xəstəliyi olan insanlara da çiyələkdən imtina etmək lazımdır. Digər meyvə və giləmeyvələr kimi çiyələyi də qida qəbulundan dərhal sonra qəbul etmək olmaz. Bu halda mədədə qıcqırma prosesləri başlayır. Çiyələyi qida qəbulları arası yemək lazımdır.

Çiyələk təbii antioksidant olaraq bədəndən zərərli maddələrin xaric olunmasında böyük rol oynayır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, iri ölçülü çiyələklər GMO ola bilər:** "Xarici ölkələrdən çiyələk növü gətirilib. Bizdə olan məlumatlara görə, bu çiyələklər İsraildən gətirilib. Bunlar da Genetik Modifikasiya Olunmuş (GMO) çiyələklərdir. Azərbaycanda çiyələklər əkilir, genişlənilir və ətraf mühitə ciddi mənfi təsir göstərir. Vaxtından əvvəl çıxarılan çiyələklərin tərkibində təkcə GMO yox, eləcə də onlara verilmiş gübrələrin komponentləri var. Çiyələk torpaqla təmasda olur və ən zərərli bakteriyalarda olur. Güman olunur ki, satışda olan çiyələklər təhlükəli, insanları zəhərləyən çiyələklər ola bilər. Böyük çiyələklər isə GMO çiyələklər kimi şərh oluna bilər".

❑ **Günel MANAFLI**

# Bir həftədə ikinci "Porsche" faciəsi: səbəb maşındır, yoxsa sürücülər?



## Bakı Porsche Mərkəzində ən çox satılan avtomobilin sürəti saatda 230-284 km-dir...

**Son bir həftə ərzində ölkədə "Porsche" markalı avtomobillə iki ağır qəza baş verib. Bunlardan biri artıq bir neçə gündür ki, ölkə ictimaiyyətində də geniş müzakirə və qınağa səbəb olan 16 yaşlı Ağəli Fərəcovun dəyəri 200 min manat olan "Porsche" ilə sürət həddini aşaraq 2 uşaq anasının ölümünə səbəb olduğu hadisədir. Digər faciəvi qəza hadisəsi isə Tovuzda baş verib. Belə ki, Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, mayın 5-də Zakir Qəhrəmanov adlı şəxs idarə etdiyi "Porsche" markalı avtomobili yolun kənarındakı daş hasara vurub. Hadisə nəticəsində Z.Qəhrəmanov dünyasını dəyişib, sərnişinlər Nurlan Hüseynov, Azad Fətullayev isə ağır vəziyyətdə xəstəxanaya yerləşdiriliblər.**



Almaniyanın avtomobil brendi olan "Porsche"nin Bakıda da rəsmi mərkəzi var. Biz də Bakı Porsche Mərkəzində olub, Azərbaycanda daha çox hansı modellərin satılması və onların texniki göstəriciləri ilə maraqlandıq.

Mərkəzin ərazisinə daxil olduğumuz zaman burada "Porsche" həvəskarı olan gənclərin avtomobillə maraqlandığını, onları sürərək test etdiklərini gördük. İçəri daxil olub, mərkəzin əməkdaşları ilə görüşdük. Bildirildi ki, mərkəzin daxilində foto çəkmək üçün mütləq şəkildə Almaniyada oturan müvafiq şəxslərə müraciət etmək lazımdır. Yalnız onların icazəsi ilə mərkəzin daxilində mətbuat üçün foto çəkmək mümkündür. Bu səbəbdən mərkəzdəki modellərin fotolarını təqdim edə bilmirik. Lakin mərkəzdəki modellərlə bağlı bəzi məlumatları öyrənə bildik.

Əldə etdiyimiz məlumata görə, mərkəzdə satış sifariş əsasında həyata keçirilir. Yeni əksər hallarda müştəri istədiyi avtomobili sifariş edir, yalnız bundan sonra həmin avtomobil ölkəyə gətirilir. Həmin avtomobillərin qiymətləri isə sifariş əsasında müəyyən olunur. Hazırda mərkəzdə olan avtomobillərin bəzilərinin üzərinə "satılıb" lövhəsi də vurulmuşdu. Öyrəndik ki, digər avtomobillərin də bəziləri sifariş olunub və öz müştərilərini gözləyir. Satışa gəlincə isə bu, daha çox kredit formasında deyil, nağd şəkildə həyata keçirilir. Bildirildi ki, kreditlə satışın olub-olmaması onların deyil, bankların qərarıdır. Azərbaycanda ən çox hansı modellərin satılmasına gəlincə isə bu barədə də məlumat əldə etdik. Belə ki, azərbaycanlılar ən çox "Porsche cayenne" modelinə üstünlük verirlər. Bu modellərin isə qiyməti komfort və göstəricilərindən asılı olaraq 56 min avrodan, 145 min 937 avroya qədər dəyişir. Bu model avtomobillərin ən ucuzunun texniki göstəriciləri isə aşağıdakı kimidir: maksimal sürət həddi saatda 230 km, mühərrikinin həcmi 4,8 l, mühərrikin gücü 420 at gücü. Bu modellərin sürət həddinin saatda 284 km olan növləri də var ki, onların da qiyməti təxminən 271 min manatadır. Alıcılara gəlincə isə mərkəzdən qısa və konkret cavab verildi: **"Alıcılarımız azərbaycanlılardır".**

Azərbaycanda "Porsche panamera" modeli də çox satılanlar sırasındadır ki, bu modellərin bəzilərinin maksimal sürət həddi saatda 310 km-dir. Belə olan halda isə azyaşlı uşaqların və ya bəzi şəxslərin uyğun olmayan yerdə sürətin həzzini yaşamaq istəkləri faciə ilə nəticələnir.

**Bakı Şəhər Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov "Yeni Müsavat"a bildirib ki, görülən tədbirlər nəticəsində sürət həddini aşmaya görə baş verən qəzaların sayı azalıb:**

"2016-cı il ərzində istər Bakı şəhəri, istərsə də ölkə üzrə qeydə alınan yol-nəqliyyat hadisələrinin aşağı düşməsi nəticəsində həm ölüm faktlarının sayı azalıb, həm də xəsarət dərəcələri də yüngülləşib. Həmçinin bu il də Bakı şəhəri üzrə qeydə alınan yol-nəqliyyat hadisələrinin sayının azalması nəticəsində ölüm faktları aşağı düşüb. Təbii ki, hadisələrin baş verməsi, "Yol hərəkəti haqqında" Qanunun tələblərinin pozulması ilə bağlıdır. Yəni sürət həddinin aşılması yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olan əsas məsələlərdəndir. Təyin olunmayan yerlərdən keçən piyadaların avtomobillə vurulması da yol-nəqliyyat hadisələrinin sayının artmasına təsir göstərən faktlardandır. Sonrakı yerlərdə isə qarşı hərəkət zolağına çıxmaq, təhlükəli manevr, texniki cəhətdən nasaz avtomobilin idarə edilməsi və sairə səbəblər dayanır. Bu gün Bakı şəhərində qeydə alınan sürət həddinin aşılması ilə bağlı yol-nəqliyyat hadisələrinin sayı aşağı düşüb. Misal üçün, 4 il öncə sürət həddinin aşılması ilə ümumi yol-qəza hadisələri 50 faiz təşkil edirdisə, indi bu rəqəm 32-33 faizə düşüb. Çünki sürət həddinin aşılması ilə bağlı tətbiq edilən xüsusi texniki vasitələr artıq bu problemi həll edib".

**V. Əsədov bildirib ki, hadisələrin baş verməsinə səbəb nəqliyyat vasitəsi deyil:** "Bu, nəqliyyat vasitəsinin markasından, növündən asılı deyil. Sadəcə olaraq, baxır bu nəqliyyat vasitəsini kim və hansı formada idarə edir. Məhz bu baxımdan avtomobillərin kateqoriyaya bölünməsi, sürəti ilə qəzaları əlaqələndirmək, hesab edirəm ki, doğru olmazdı. Bu avtomobilləri idarə edən sürücülərin hesabına həmin hadisələr baş verir".

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

N 98 (6712) 9 may 2017




### Böyük Britaniyanın ən yaşlı məhkumu 101 yaşındadır

Böyük Britaniya tarixinin bu günə qədərki ən yaşlı məhkumu 101 yaşlı Birmenqem sakinidir. Onun 101 yaşı tamam olur. Bu barədə "Daily Mail" xəbər verib. Yük maşını sürücüsü olmuş məhkumu 1974-1983-cü illərdə yetkinlik yaşına çatmayan uşaqlara qarşı əxlaqsız hərəkətlər etməkdə suçlayırlar. Onun qurbanları iki qız, bir oğlan olub. Zərərçəkmişlər bir il öncə polisə müraciət ediblər. Araşdırmadan sonra ona 17 seksual təcavüz, uşaqlara qarşı 12 əxlaqsız xarakterli hərəkətlə bağlı ittiham verilib. Detallar açıqlanmayıb. İstintaq zamanı kişi etiraf edib ki, bu hərəkətlərdən bəziləri yadındadır. Amma o, bunların seksual xarakterli cinayət olmasını inkar edir. Bundan başqa, ilk məhkəmə iclasında məlum oldu ki, ittiham olunan şəxs yaxşı eşitmir, ona görə də ona məhkəmədə deyilənləri çatdıran bir nəfər lazım gəldi.

### Polisin maşınında şam yeməyi yedi, həbs olundu

Mançesterdə yaşayan bir kişini polis maşınının yük yerində şam yeməyi yediyi üçün həbs ediblər. 30 yaşlı kişi iyulun 6-na keçən gecə, saat 1-də polis maşınına girib. Hüquq-mühafizə orqanı əməkdaşlarından biri gecə reydi keçirən zaman gənc britaniyalının polis maşınında konfetlə südlü kokteyl içdiyini görüb. Həbs olunan kişinin sərxoş olduğu üzə çıxıb. Adi açıqlanmayan britaniyalıya ictimai asayişi pozduğu üçün cəza verilib.

## Çörək... qadın sonsuzluğuna səbəb olur

**Kolumbiya Universitetinin professorları çox çörək yeyən qadınlarda sonsuzluq riskinin artdığını açıqlayıblar. Hamilə qala bilməyən 188 qadının iştirak etdiyi araşdırmada qlutenli qidalar yeyən qadınlarda sonsuzluq riskinin 6 dəfə çox olduğu müəyyənləşdirilib.**

Qlutenlə ən zəngin qidanın çörək olduğunu bildirən alimlər ana olmaq istəyənlərə çörəkdən imtina etməyi məsləhət görüblər.

Alimlərin sözlərinə görə, həddən artıq qluten qəbul edən kişilər də eyni problemlə üzləşirlər. Onların ata olmaq şansı 30 faiz azalır.

Çörəyin sonsuzluqla yanaşı, uşaqsalmaya, menstruasiya ilə bağlı problemlərin yaranmasına səbəb olduğu deyilir.



Qluten maddəsinin bəzi kosmetik vasitələrin tərkibinə də vurulduğunu bildirən həkimlər qadınların xüsusilə, dodaq boyalarına qarşı diqqətli olmalarını tövsiyə edirlər.

## Qadının ayaqqabısı onun xarakterindən xəbər verir

**Qadınların geyindiyi ayaqqabılar birbaşa onun xarakteri ilə bağlıdır. Alimlər müəyyənləşdiriblər ki, bu, qadının psixoloji durumu ilə də bağlıdır. Əgər xanım yalnız hündürdaban ayaqqabı geyinirsə, demək, onu ətrafdakıların fikri çox maraqlandırır. Ətrafdakılar onu bəyənsin deyə, hündürlükdə olmağı sevir. Belə bir fikir də vardır ki, bu cür xanımlar insanlardan daha üstdə olmağı sevir ki, onları diqqətlə izləyə bilsin. Onlar elit təbəqənin sakinləri sayılan, özünə güvənən, əsl xanım və yaxşı əlaqələr qurmağı bacaranlardır. Platforma geyinməyi sevən xanımlar açıq sözlü, şəxsi fikirli olurlar. Onları ətrafdakıların fikri qətiyyən maraqlandırmaz. Lazım olmasa belə, öz bildiklərini edər. Qarşısına şərt qoymaz, amma həmişə uğur qazanmağı da bacarar. Əgər ətrafınızda kişi ayaqqabısı modelində ayaqqabı geyinən xanım varsa, o, sərt, özünə qapanan və kişi xarakterli biridir. Onu fikrindən daşındıra bilərsinizsə, hərəkətə keçin. Çünki bu cür xanımlar tez-tez depressiyaya girir.**



### Kök məhkum türmədən qaçmaq istədi, divarın arasında ilişib qaldı

**Braziliyada türmədən qaçmaq istəyən bir məhkum ilginc bir hadisənin qurbanı olub. Belə ki, o, türmənin divarları arasında ilişib. Rafaello Valadonun belə bir aqibətlə üzləşməsinin səbəbi onun kök bədəni olub. Hadisə Seris bələdiyyəsində, 3 dekabr tarixində baş verib. Həmin vaxt braziliyalı türmədən öz dostları ilə birgə qaçmaq istəyib. Qaçışı divarda açılmış deşiyin köməyi ilə gerçəkləşdirmək planlaşdırılıbmış. Məhkumlardan biri qaçmağa nail olub. Amma Valado deşiyə özünü salsa da, nə qabağa, nə də arxaya doğru hərəkət edə bilib. Nəticədə isə nə özü qaça bilib, nə də digər yoldaşları. Valado yardım istəyərək qışqırmağa başlayıb və onun köməyinə türmə işçiləri gəlib.**

Bir neçə saatdan sonra nəhəng məhkum deşikdən çıxarılıb. Onu türməyə çağırılan yanğınsöndürən xidməti xilas edə bilib. Türmədən birinci qaçan şəxsi yaxalamaq mümkün olmayıb.




**QOÇ** - Əgər günün ilk yarısını sabitlik şəraitində başa vursanız, sonrakı saatlarda qənaətbəxş məqamlar yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə bir çox müsbət yeniliklər də gözlənilir.

**BUĞA** - Ulduzlar səhhətinizdə müəyyən problemlərin olacağını bildirir. Qida orqanlarınızı qoruyun. Bu gün hər hansı yeni işə başlamağın, sövdələşmə aparmağın uğurlu sonu olmayacaq.

**ƏKİZLƏR** - Daxili orqanlarınızda mövcud olan xoşagəlməzliyi dəf etmək üçün pəhriz saxlamalısınız. Bu gün hər hansı pul sövdələşmələrindən yayının. Ailədaxili problemlərə başısoyuq yanaşmayın.

**XƏRÇƏNG** - İnsanlarla münasibətdə səmimi olun, cığallıq etməyin. Ələlxüsus da ailə-sevgi zəminində doğru olanlarla razılaşın. Bu gün boş məsrəflərə pul xərcləmək, içki içmək, yalan vəd vermək olmaz.

**ŞİR** - Günün birinci yarısından hansısa yeniliyi gözləməyə dəyməz. Sonrakı müddətdə isə taleyinizdə müsbət rol oynayan insanlarla görüşüb, gələcək planlarınızı müzakirə edə bilərsiniz.

**QIZ** - İxtiyarınızda olan bu təqvimdə hər bir hadisəni analiz etmək başlıca vəzifənizə çevrilməlidir. Yalnız bu halda nəzərdə tutduğunuz əksər planların uğurlu həllinə nail ola bilərsiniz.

**TƏRƏZİ** - Bəri başdan anlayın ki, sizin üçün fəaliyyətdə uğur gətirən ərəfə başlamaqdadır. Əgər daxili gücünüzə əminsinizsə, risk etməkdən qorxmayın. Növbəti on gündə görəcəyiniz işləri indidən planlaşdırın.

**ƏQRƏB** - Mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, təxminən saat 15-ə qədər neçə vaxtdan bəri dondurduğunuz işləri davam etdirmək olar. Bu gün təkliflərə "hə" desəniz də, uzaq səfərə çıxmayın.

**OXATAN** - Yersiz risklər və sübut olunmamış məsələlərə birmənalı rəy bildirmək sizə başucalığı gətirən deyil. Odur ki, hər mənada obyektiv olun. Axşama doğru yeniliklərin şahidi olacaqsınız.

**OĞLAQ** - Günün ümumi mənzərəsi çox sahədə xeyrinizə deyil, ələlxüsus da saat 11-13 və 20-21 arası. Əgər yalan vədlər verməsəniz, riskdən qaçsanız, müəyyən qədər irəliləyişlər ola bilər.

**SUTÖKƏN** - Qarşınızda may ayının ən uğurlu təqvimlərindən bir durub. İstər qarşılıqlı münasibətlərdə, istərsə də maliyyə məsələlərində vəziyyət ürəyinizcə olacaq. Vədələşdirilən görüşlərə gecikməyin.

**BALIQLAR** - Ulduzların düzümü qayğılarınızın çox olduğunu və ətrafda olanlara az ümid etdiyinizi bildirir. Elə isə bu təqvimdən yararlanıb Tanrıya sığının. Yalnız bu halda nicat tapacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Saçı tez ağaran insanlarda.... ürək-damar xəstəlikləri var



**Bəzi insanların saçı həddən artıq tez ağarır. Hər saç teli rəngini "melanosit" adlanan və rəng piqmenti ifraz edən hüceyrələrdən alır. Bu hüceyrələrin funksiyasını itirməsi, piqment azalması, ya da yox olması saçlarda ağarma ilə nəticələnir. Aparılan bəzi çalışmalarda saç ağarmasının ürək-damar xəstəlikləri ilə əlaqəsi olduğu bildirilib. Buna görə erkən saç ağarması problemi olanların kardioloji müayinədən keçməsi tövsiyə edilir.**

Erkən saç ağarması olan insanlarda sümük azalması da görülə bilər. Sümük azalması (osteopeni) olan kişilərdə bunun qarşısını almaq üçün tədbirlər görülməlidir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100